

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib



3

№ 182 (6865)

# SƏS

6 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik

## "Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələri var"



*Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

# Korrupsiyalı sanksiya



4

*Yaxud "Dördlər"in Qranada fiaskosu...*

## Dünya oksigensiz boğulur - SOS



12

## "Bolt"lar üz çevirir...



7

## Hamı şəhərdədir, bəs kəndlər?



15

## Uğurla icra olunan sosial dəstək



8

## XƏBƏRDARLIQ: Yuxu dərmanları asılılıq yaradır!



16

**Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.**

# Azərbaycan-Almaniya əlaqələri: tarix, inkişaf və perspektivlər

*İLHAM ƏLİYEV: "Biz Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk"*

Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. O vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib. Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

Bundan başqa, Prezident İlham Əliyev 3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram. Biz Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur». Dövlətimizin başçısı, həmçinin qeyd edib: «Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur. Azərbaycan Almaniya ilə əlaqələri möhkəmləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək əzmindədir. Əminəm ki, həm dövlətlərarası münasibətlərimiz, həm də Avropa İttifaqı çərçivəsində qarşılıqlı maraq doğuran qarşılıqlı fəaliyyətimiz bundan sonra ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir".



### AZƏRBAYCANLA ALMANİYA ARASINDA MÜNASİBƏTLƏR YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

İndi də iki ölkə arasındakı münasibətlərin tarixinə qısaca da olsa nəzər yetirək. Öncədən qeyd edək ki, xalqlarımız arasında əlaqələrin dərin tarixi kökləri vardır. XIX əsrdə bir qrup alman ailə Azərbaycan ərazisinə köçüb, burada üzümçülüyün və şərabçılığın inkişafında mühüm rol oynayıb, eləcə də iqtisadiyyatın digər sahələrinin inkişafına böyük töhfə verib. Ötən il fevralın 20-də iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunub. Bu müddət ərzində Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə əməkdaşlıq sürətlə inkişaf edib. Ötən il fevralın 15-də Prezident İlham Əliyev Almaniya Prezidenti Frank Valter Ştaynmayeri yenidən prezident seçilməsi münasibətilə təbrik edib. Eləcə də bu il yanvarın 13-də iki ölkənin prezidentləri arasında telefon danışığı olub. Söhbət zamanı prezidentlər Azərbaycan-Almaniya əlaqələrinin mövcud vəziyyətindən məmnunluqlarını bildirib, əməkdaşlığın perspektivlərini müzakirə ediblər. Prezident İlham Əliyevin martın 13-14-də Almaniyaya işgüzar səfəri isə iki ölkə arasında münasibətlərin daha da gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ən əsası isə Almaniyanın Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş kimi qəbul etməsidir və ölkəmizin regionda lider mövqeyini, həmçinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir. Eyni zamanda, bu ölkə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu təqdir edir. Xatırlatmaq yerinə düşər ki, 2022-ci ilin iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənədə əsasən, Azərbaycan 2027-ci ilə qədər təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırır. Bu sənəd, eyni zamanda, Azərbaycan ilə Aİ arasında bərpa olunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutur. Bir sözlə, dövlətimizin başçısının Almaniyaya səfəri Azərbaycan-Almaniya etibarlı tərəfdaşlığının hərtərəfli və yüksələn xətlə inkişafının əyani göstəricisidir. Əminliklə söyləmək olar ki, bu səfər bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasına əhəmiyyətli təkan verəcək, gələcək inkişaf üçün böyük perspektivlər açacaq. Aparılacaq danışıqlar nəticəsində Azərbaycanla Almaniya arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyacaq, bir sıra sahələrdə əməkdaşlıq əlaqələrinin qurulması və genişləndirilməsi üçün əlverişli imkanlar daha da genişlənəcək.

**R. KAMALQIZI**

# "Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələri var"

*Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.***

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri ilə arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bütün dövrlərdə - həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi. İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu dedi. Səfir İssam bin Saleh əl-Cuteyli, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd, Baş nazir



Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və Vəliəhdə çatdırmağı xahiş etdi. Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.

# Azərbaycan və İordaniya zəngin tarixə malik ölkələrdir

*Prezident İlham Əliyev İordaniyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.***

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı. Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib

***Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə qardaş Türkiyəyə səfər edib.***

YAP nümayəndə heyəti oktyabrın 7-də Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə AK Partinin "Türkiyə yüz ili üçün hər zaman yeni, hər zaman irəli" şüarı ilə Ankarada keçiriləcək IV Fövqəladə Böyük Qurultayında iştirak edəcək.

Səfər çərçivəsində nümayəndə heyətinin bir sıra görüşləri də nəzərdə tutulub. Nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Rusiyalı ekspert: "İrəvanın Roma Statutunu qəbul etməsi Qarabağın itirilməsinin qisasıdır"

Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya etməsi ilə bağlı fikirlərini "Moskva-Baku" portalına şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Aleksey Valeriyeviç, Ermənistan parlamenti Cinayət Məhkəməsinin Roma Əsasnaməsini ratifikasiya edib. Rəsmi Moskva artıq bəyan edib ki, bu, "səhv addım, strateji cəhətdən düzgün olmayan qərardır və ilk növbədə Ermənistan və onun vətəndaşları üçün problem yaradacaq".**

- Bu, Rusiyaya qarşı son dərəcə qeyri-dost addımdır. Bu, İrəvanın Moskvadan qisası, meydan oxumasıdır: Ermənistan Rusiya liderinin həbsinə order verən təşkilata açıq şəkildə qoşulduğunu göstərir. Bundan qeyri-dost addımı təsəvvür etmək mümkün deyil. Belə çıxır ki, prezident Ermənistana gəlsə, ona qarşı təxribat törədilməyəcəyinə heç kim təminat verməyəcək.

Bu, həm də Ermənistanın Rusiyadan qisasıdır, deyirlər, siz qondarma "Artsax" uğrunda müharibədə bizi müdafiə etmədiniz və indi sizə belə cavab veririk. Və bu həm də Ermənistanı Rusiyadan ayırmaq üçün Qərb ssenarisinin həyata keçirilməsinin davam etdirilməsi və Cənubi Qafqazda daha bir anti-Rusiya ocağının yaradılması cəhdidir.

Yeri gəlmişkən, görürük ki, Ermənistanda hakimiyyət Rusiya telekanallarının televiziya şəbəkəsindən çıxarılması ilə bağlı növbəti bəyanat dalğası yayıb.

Sual yaranır: Ermənistan KTMT-dən planlaşdırılmış şəkildə çıxdıqdan sonra nə etmək niyyətindədir?

Ermənistan KTMT-dən, Aİİ-dən çıxıb nümayişkaranə şəkildə Rusiyadan üz döndərsə belə, İrəvanda Qərbin onlara əməli dəstək verəcəyini düşünürlərmi? Bu baş verməyəcək. Onlar amerikalıların və avropalıların gəlib onları qoruyacağına ümid etməyə davam edirlər. Gələcəklər... Bəs qoruyacaqlarmı? Yox. Ermənistanın özü haqqında tamamilə fantastik təsəvvürləri var. Son 30 ildə Ermənistan özünü əmin etdi ki, o, bütün dünyaya məxsus bir növ unikal sivilizasiyadır. Bundan yeni Ukrayna



hazırlanır.

Bayden Samanta Pauer vasitəsilə Paşinyana məktubu təhvil verib, təhlükəsizlik və hərbi sahədə əməkdaşlığı gücləndirməyi təklif edib. İndi Qərb aktiv şəkildə maliyyəni Qarabağ ermənilərinə yönəldir. Daha doğrusu, bunlar Paşinyan və komandası üçün Rusiyadan tam qopma ssenarisini həyata keçirmək üçün tranşlardır. Növbəti addım KTMT-dən çıxmaqdır. Nəhayət, Ermənistan nə vaxtsa oynanan karta çevriləcək.

Roma Statutunun ratifikasiyası da anti-Azərbaycan addımıdır. Ermənistan regionda öz düşmənlərini yaradır. Özünü məhv etməyə gedir. O, sülh istəmir. Qərb Ermənistanın inkişafına yox, ondan istifadə etməyə daha çox diqqət yetirir. Nəhayət Rusiya ilə dalaşsa, necə yaşayacaq? Burada dövlət maraqlarından əsər-əlamət yoxdur. Son illərdə Ermənistan mümkün olmayanı etdi- Rusiyaya yaxın ölkədən uzaq ölkəyə çevrildi. Bu anti-diplomatiyadır. Hələ bunu bacarmalısan.

Eyni zamanda, ABŞ-da Ermənistana aid planlarla bağlı konsensus yoxdur. Bəzi qüvvələr deyir: "Qoy Ermənistan KTMT-dən çıxsın, sonra orada bazalar açaq". Digərləri deyirlər: "Ermənistan KTMT-dən çıxmalıdır, amma biz bazanı açmayacağıq, çünki İran və Türkiyə yaxınlıqdadır. Çox risklidir. Üstəlik, coğrafi baxımdan bu Ermənistana necə çatmaq olar". Avropa Şurasının rəhbəri Şarl Mişel Bakının Aİ ilə münasibətlərinin çətin olduğunu açıqlayıb. Çünki Azərbaycan onların manipulyasiya etdiyi Ermənistandan fərqli olaraq Qərb üçün çox sərtdir.

Qərb Azərbaycana qarşı sanksiyalar tətbiq edə bilməyəcək. Çünki ona çox ehtiyacı var. Aİ-nin Azərbaycan qazından nə dərəcədə asılı olduğu məlumdur. Ona görə də Avropa İttifaqı təkbaşına zərbə endirməyəcək. Böyük Britaniyanın Azərbaycandakı neft biznesi ilə necə bağlı olduğu məlumdur.

**- ABŞ ədalətli vasitəçi kimi maskalanır, amma Dövlət Departamenti Qarabağ üçün müəyyən statusun müəyyənləşdirilməsinin zəruriliyi məsələsini yenidən gündəmə gətirib. Məsələ artıq həll olunub... lakin ermənilərin hüquqlarına və təhlükəsizliyinə riayət olunmasına nəzarət edəcək daimi əsasda beynəlxalq missiyanın Qarabağa göndərilməsi ideyasını təbliğ etməkdə davam edir...**

- Amerikalılar Ermənistana göstərmək istəyirlər ki, onlar onun tərəfindədirlər. Onlar göstərmək istəyirlər ki, bəli, biz sizinləyik, sizi dəstəkləyirik. Amma heç kim onlara real yardım göstərməyəcək. Sözlərlə hərəkət edirlər. Qarabağda beynəlxalq missiya real deyil.

- Ermənistan-Azərbaycan prosesində növbəti mərhələ Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Bu, Cənubi Qafqazın daha təhlükəsiz olması baxımından son nöqtə olardı. Bəs Ermənistan, xüsusən də Rusiya ilə münasibətlərdə yaranan vəziyyəti nəzərə alaraq bununla razılaşacaqmı?

- Aydındır ki, Azərbaycan son illərdə bütün çətinliklərin öhdəsindən gəldiyi kimi bunun da öhdəsindən gələcək. Amma həqiqətən də Ermənistanla Azərbaycan arasında sülhün hüquqi müstəvidə bərqərar olması məsələsi vacibdir. Bu, yenə də bizə hansısa yolla beynəlxalq hüquqa müraciət etməyə imkan verəcək. Bəli, Azərbaycan hazırda işğaldan azad edilmiş ərazilərin bərpası və daha ciddi və mürəkkəb bir prosesə (xüsusən də antiazərbaycan kampaniyası fonunda bunu beynəlxalq ictimaiyyətə müsbət mənada nümayiş etdirmək baxımından) tam qərq olub. Qarabağ ermənilərinin Azərbaycan Respublikasının hüquq sahəsinə reinteqrasiyası məsələsi də var. Amma Azərbaycan əminəm ki, Rusiyanın da köməyi ilə istənilən mənfi hadisələrin öhdəsindən gələ biləcək.

Məncə, Paşinyanın sülh imzalamağa razılıq verəcəyi ehtimalı azdır. Onun tarixə sülhməramlı lider kimi daxil olmaq vəzifəsi yoxdur. Bu, heç cür mümkün deyil. Və sülh müqaviləsi imzalamağa razı olsa, çalışacaq ki, bu, Rusiyanin vasitəçiliyi ilə olmasın. Düzdür, bu, ona çox baha başa gələ bilər.

Bəyanatlara əsasən, Rusiya Azərbaycanla Ermənistan arasında sülh prosesində ən adekvat vasitəçi kimi görünür. İndiki şəraitdə çətin ki, Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasında Moskvanın vasitəçi olmasını istəsin. Paşinyan Putin və Rusiya ilə münasibətləri gərginləşdirməyə davam edəcək. O, artıq, əvvəllər proqnozlaşdırıldığı kimi, qışqırır ki, Rusiya bizə xəyanət edib və biz yeni tərəfdaşlar axtarırıq. Bəli, Rusiyanın vasitəçiliyi ilə sülh imzalanmasa, bu onun üçün yumşaq desək, o qədər də yaxşı olmayacaq. Qərb isə bunu çox gözəl başa düşür və Rusiya üçün bundan sonra da diskomfortlu vəziyyət yaratmaq üçün hər şeyi edəcək. Bəli, indi Cənubi Qafqazda nüfuz uğrunda mübarizə gedir. Və bunlar çox ciddi proseslərdir.

***Tərcümə - Elçin Bayramlı***

# Korrupsiyalı sanksiya



## Yaxud "Dördlər"in Qranada fiaskosu...

***Qarabağ məsələsi bitdi, köçən köçdü, qalan qaldı. Qanunlarımıza tabe olanlarla qalacağıq, bir yerdə yaşayacağıq. Başqa xalqlar kimi Azərbaycanda ermənilərin də hüquqları tanınacaq və qorunacaq. Dövlətimizin siyasəti də ta əzəldən belə idi. Laçın yolu ilə gedən ermənilərdən də, zatən bunlar soruşulurdu, bu torpaqlardan niyə gedirsiniz? Cavab da gözlənilən idi, "bizi "hökumətimiz" məcbur edir ki, gedək", yaxud "biz Azərbaycan qanunları ilə yaşamaq istəmirik". Nə etməli? Gedənə yaxşı yol, qalan da qalacaq. Amma bizimkiləri belə "yola" salmayıblar ermənilər. Döyə-döyə, öldürə-öldürə öz evindən didərgin salıblar, əllərinə düşəni qul kimi, ölənəcən işlədib, sonra da Sonrası hər kəsə bəllidir. Bu gün 4 mindən artıq itkin düşən azərbaycanlının cəmi 500-nün qalıqları tapılıb. Qalanları hələ də axtarılır, sağ tapmaq ümidi ilə.***

Müharibəni udduq, erməni ağıllanmadı, əvəz çıxacağı ümidi ilə yaşadı, verdiyimiz şansı qiymətləndirmədi. Növbəti zərbələr aldı, düşündük ki, bəlkə Sonra yenə bəlkələr, amma yanıldıq. Ermənilər sonuna qədər getmək qərarını versələr də, havadarlarının onları yiyəsiz qoymayacaqları ümidi ilə yaşasalar da heç bir möcüzə baş vermədi. Dostları siyasi bəyanatlarla kifayətləndikləri halda, uzaq "qohumları" – İran və Hindistan əllərində qalan köhnə silahları, "moddan" düşmüş top və raketləri Ermənistana sırımaqla "qardaşlıq" hissinin hələ ölmədiyini "isbat" etdilər. Azərbaycan son həmləsini etdi, antiterror tədbirləri ilə erməniləri davamlı şəkildə törətdikləri qanlı hadisələrin qarşısını almaqla bərabər Qarabağdakı separatçıların sonunu da gətirdi. Dövlətimiz ermənilərə seçim imkanı verdi, biri Azərbaycan qanunlarına tabe olmaq, vətəndaşlıq almaq və həyata davam, digəri isə "yaxşı yol" idi.

Yaratdıqları separatçı, xunta rejiminin kökü qazılandan sonra Ermənistan hökumətinin əli hər yerdən üzüldü və hələ ötən il Azərbaycanın təklif etdiyi, lakin İrəvan tərəfindən müsbət cavab verilmədiyi sülh müqaviləsi bu gün işğalçı ölkə rəhbərinin yadına düşüb. İspaniyanın Qranada şəhərində keçirilən Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Azərbaycanla sülh müqaviləsi barədə danışıqlar aparacağını düşünən Paşinyan həmin görüşə tək gəlməyi də düşünməmişdi. Yanına "böyük bacı"sı Fransanı və hələ də mövqeyi qeyri-müəyyən olan Almaniyanı alaraq Azərbaycan liderinə guya təzyiq edəcəyini düşündüyü bir halda vəziyyət 180 dərəcə dəyişdi. Azərbaycan tərəfi bu müzakirələrdə konkret nələrin danışıqlar masasında olacağını, həmçinin kimlərin orada olacağını nəzər alaraq bu görüşə veto qoydu. Həm Makronun, həm də Paşinyanın bütün planları bir həmlə ilə pozuldu.

Türkiyə Azərbaycan Prezidenti İlham Əliyevin Qranada görüşdən imtina etməsini





təqdir edir. Bunu Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik deyib. O qeyd edib ki, Avropa liderlərinin Türkiyə Prezidentinin beşli formatda (Ermənistan-Azərbaycan-Fransa-Almaniya-Avropa İttifaqı) görüşə qatılmasına etirazları qəbuledilməzdir. Fransa uzun müddət Ermənistanı müdafiə edib. Fransanın beştərəfli görüşdə iştirak etməsi, Türkiyənin iştirak etməməsi yolverilməzdir. Azərbaycan Prezidenti də bununla bağlı mövqeyini ortaya qoydu. Fransa hələ də Ermənistanın işğalçı olduğunu demir. Azərbaycan isə öz işini çoxdan həll edib. Artıq Qarabağ məsələsi həllini tapıb.

Qeyd edək ki, Azərbaycan Qranada görüşündə Türkiyənin iştirakını təklif etmişdi və bunda israr edirdi. Lakin Fransa və Almaniya xüsusi canfəşanlıqla buna imkan verməyib. Azərbaycana təklif olunan beşli formatda anti-Azərbaycan ab-havası formalaşıb. Fransanın müdafiə və xarici işlər nazirlərinin ermənipərəst bəyanatları, XİN başçısının Ermənistana səfəri və hərbi əməkdaşlıq, silah-sursat veriləcəyi haqda açıqlamalar, Aİ Şurasının Prezidenti Şarl Mişelin Azərbaycanı ittiham edən açıqlaması fonunda Azərbaycan bu formatda danışıqlarda iştiraka lüzum görməyib. Buna görə Azərbaycan görüşdən imtina edib.

Avropa Siyasi Birliyi adlı sammitin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. Bu siyasi koordinasiya platforması heç bir mövcud təşkilatı, strukturu və ya prosesi əvəz etmir, hazırkı mərhələdə yeni təşkilat, struktur yaratmaq məqsədi daşımır. Bundan əvvəlki sammitlər Çexiya və Moldovada keçirilib. Avropa Siyasi Birliyinin ilk sammit öncəsi Aİ-nin baş diplomatı Cozep Borrel deyib ki, bu görüş Rusiyasız yeni nizam axtarmaq üçündür: "Burada Rusiyanın, Putinin Rusiyasının yeri yoxdur".

Sammit Azərbaycan ordusunun Qarabağ bölgəsində həyata keçirdiyi lokal antiterror tədbirlərindən bir neçə həftə sonraya təsadüf edir. Əməliyyat nəticəsində separatçılar təslim olub və qondarma qurum ləğv edilib. Beləliklə, sammitin Avropanın yaxınlığındakı tarixi problemlərdən birinin həllindən sonra keçirilməsi diqqətəlayiqdir. Azərbaycan Prezidenti İlham Əliyev isə Fransanın təxribatçı mövqeyinə görə sammitdə iştirakdan imtina edib. Rəsmi Bakı Azərbaycan-Ermənistan-Fransa-Almaniya-Avropa İttifaqı Şurası formatında beştərəfli görüşdə Türkiyənin də iştirak etməsini təklif edib. Lakin buna imkan verilməyib.

### Ermənistan bundan sonra hara gedəcək?

"Beşlik" "dörd" oldu: İlham Əliyev Ermənistan, Fransa, Almaniya və Aİ rəhbərləri ilə görüşünün keçirilməli olduğu Qranadaya səfərdən imtina etdi. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanı danışıqlara dəvət etməkdən imtina edən Avropanın mövqeyi Azərbaycan Prezidentini qane etməyib. Ermənistanın baş naziri Nikol Paşinyan da öz növbəsində Bakı ilə tam hüquqlu sülh müqaviləsi imzalamağa hazır olduğunu bildirib. Bunu Qərbin Cənubi Qafqazda öz nüfuzunu bərpa etmək cəhdi kimi qiymətləndirmək də olar.

**Ardı Səh. 5**

# Korrupsiyalı sanksiya



Əvvəli-Səh-4

Nəticədə faktiki olaraq Qranadada Ermənistan-Avropa İttifaqı sammiti keçiriləcək. Bu o deməkdir ki, Qərb liderləri yəqin ki, Ermənistanın baş nazirini öz tərəflərinə keçib seçim etməyə dəvət edəcəklər. Onlar hətta silah tədarük etməyə də hazırdırlar. Azərbaycana qarşı sanksiyalar tələb edənlərin səsi də hərdən eşidilir. Azərbaycan isə fəal inkişaf edir və o, bütün dünya ilə gələcək qarşılıqlı faydalı tərəfdaşlığa hazır olduğunu nümayiş etdirir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və bir növ Qafqazın güc və inkişaf mərkəzi olduğunu açıq şəkildə bəyan edir. Ancaq həm Avropa, həm də Amerika qeyri-konstruktiv davranır, Qarabağda baş verənləri bəyənmirlər. XXI əsrdə bu qəbul edilmir, deyirlər. Deməli, onlar öz mənfəətlərini dərk etməyə və məsələyə praqmatik nöqteyi-nəzərdən yanaşmağa hazır deyillər.

Bu qeyri-müəyyən bir şəkildə nəyəsə bənzəyir. Bunu artıq haradasa görmüşük və eşitmişik. Lakin əsas sual məhz kollektiv Qərbin niyyətlərinin ciddiliyidir. Onun nümayəndələri sözdən hərəkətə keçməyə hazırdırmı? Burada Rəcəb Tayyib Ərdoğanın mövqeyinə də baxmaq vacibdir. Təbii ki, o, Qərbi tənqid edir, bəzən də sərt şəkildə tənqid edir, lakin qırmızı xətləri keçmir. Çünki onlar bir-birindən asılıdırlar. Və bəlkə də, buna görə, o, özü də Qranadaya getmək istəmirdi, çünki bu, əlverişsiz ola bilərdi.

"Azərbaycan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelinin iştirakı ilə aparılan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında olan üçtərəfli Brüssel prosesini və regional sülh gündəliyini dəstəkləyir və bu mənada sülh müqaviləsi daxil olmaqla, bir çox sülh təşəbbüslərinin müəllifi məhz Azərbaycandır". Bu barədə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "X" platformasında bildirib.

"Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranada da iştirak etməməyə qərar vermişdir. Biz, həmçinin, ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı idik. Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyildir. Azərbaycan Brüsseldə Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında Brüsseldə tezliklə üçtərəfli görüşlərə hazırdır. Azərbaycan tərəfi eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülh müqaviləsi üzrə birbaşa və ikitərəfli dialoqu və danışıqları dəstəkləyir. Fürsətdən istifadə edərək İspaniyadan olan həmkarlarımızı və dostlarımızı Avropa Siyasi İcmasının Qranada görüşünü uğurla təşkil etmələri münasibətilə təbrik edirik və Ermənistan-Azərbaycan dialoquna töhfə vermək niyyətlərinə görə təşəkkür edirik", - o qeyd edib.



Türkiyənin Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin birinci müavini, sabiq Baş nazir Binəli Yıldırım isə bildirib ki, Azərbaycan torpaqlarını azad etdi, Ermənistan isə səhvlərini davam etdirir. B.Yıldırım bildirib ki, keçmiş Minsk Qrupu və digər beynəlxalq təşkilatlar Qarabağın işğaldan azad olunması üçün heç bir addım atmayıblar: "Nəhayət, Azərbaycan 30 ildən sonra özü öz işini gördü, torpaqlarını azad etdi. Amma Ermənistan diasporun təhriki ilə səhvlərini davam etdirir. Ermənistan enerjisini inkişafa sərf etmək əvəzinə, qeyri-qanuni fəaliyyətlərlə məşğul olur. Azərbaycan Qarabağı terrorçulardan tamamilə azad etdi".

Sabiq baş nazir qeyd edib ki, Türkiyə daim Azərbaycanın yanındadır: "Türk dövlətləri arasında əməkdaşlıq günü-gündən inkişaf edir. Bu, bizi sevindirir. Türk Dövlətləri Təşkilatı kimisə narahat etməməlidir. Bu qurum kiməsə qarşı deyil. Amma o da bilinməlidir ki, biz kimsədən qorxmuruq".

### Korrupsiyanın doğurduğu sanksiya Avropaya nə verəcək?

Avropa Parlamentinin üzvləri Strasburqda keçirilən plenar iclasda Avropa İttifaqını Qarabağdakı antiterror tədbirlərinə görə Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağıran qətnamə qəbul ediblər. Qeyd edək ki, qətnamə məcburi deyil. Avropa Parlamenti Aİ-ni və üzv dövlətləri Qarabağda guya "insan hüquqlarının pozulmasına" görə məsuliyyət daşıyan Azərbaycan hökumətindəki şəxslərə qarşı məqsədyönlü sanksiyalar tətbiq etməyə çağırır. Azərbaycanla Ermənistan arasında münaqişənin dərinləşəcəyi təqdirdə deputatlar Azərbaycan nefti və qazının idxalını tamamilə dayandırmağı məsləhət görürlər.

Siyasətçilər Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməsindən korrupsiya iyi gəldiyini xüsusi olaraq vurğulayırlar. Nəzərə alsaq ki, Avropa Parlamentinin bir sıra üzvləri erməni diasporunun korrupsiyasından istifadə edərirlər, burada avroparlamentarilərin qərəzli mövqeyini müəyyən etmək bir o qədər də çətin olmaz. Avropa Parlamenti daim müxtəlif lobbi qruplarının maraqlarına xidmət edib. Qurum korrupsiya qalmaqalları, dəfələrlə parlament üzvlərinin rüşvət və korrupsiya ittihamları ilə üzləşib. Bundan əvvəl Avropa Parlamentinin yunanıstanlı vitse-spikeri milyonlarla avro rüşvət alması ilə bağlı faktların ortaya çıxması və bundan sonra qalmaqalların baş verməsini də unutmaq lazım deyil. Digər bir məsələ isə Avropa Parlamenti barəsində hazırda Azərbaycanda şübhəli şəxs kimi istintaqa cəlb edilmiş erməni əsilli separatçı Ruben Vardanyanın istintaqa verdiyi ifadələrdir. O, Avropa institiltlarının Azərbaycana qarşı qərəzli qərarların verilməsində ondan alınan milyonların nə qədər rol oynadığından geniş danışıb. Bütün bunlar Azərbaycana qarşı əsl sanksiya yox, qondarma sanksiyaya cəhd olduğu ortaya çıxır.

Bu gün Qarabağda yeni abhava yaşanır, 30 illik işğaldan sonra bu yerlərə yeni nəfəs gəlir. Ermənistan ordusunun xarabazara çevirdiyi rayon və kəndlər, qəsəbə və şəhərlər abadlaşır, yenidən qurulur, inkişaf edir. Azərbaycan regionda yeni qaydalar tətbiq edir, sülh və sabitlik tələb edir, tərəqqiyə can atır, ardınca da Cənubi Qafqazın digər ölkələrini də aparmaq istəyir. Bəs Ermənistan hara gedir? Çox ciddi sualdır.

***V.VƏLİYEV***



# Qərb təsisatlarının əl çəkmədiyi
# İKİLİ STANDARTLAR

***Azərbaycanın Qarabağ iqtisadi rayonundan ermənəsilli sakinlərin Ermənistana qəflətən axınının sürətlə artmağa başlamasını guya Qərb ağrılı hesab edib, əl-ayağa düşməli olub və onların yardıma ehtiyaclarının olduğu qənaətində gəlib. Maraqlıdır, heç bir insident olmadığı halda, Azərbaycanın Qarabağ bölgəsini on minlərlə erməniəsillinin tərk etməyə başlamasını Qərb uzun illər aparılan şovinist təbliğata inananların köçü deyil, kortəbii köç hesab edir ki, yardıma ehtiyac olduğu qənaətindədir? Belə hesab etməyə də, belə qənaətdə olmağa da əsas yoxdur, köç edən ermənilər buna hazırlıqlı olmasaydılar, ehtiyac amili olsaydı kökməzdilər və göründüyü kimi, Qərbin məqsədi bir bəhanə ilə yenə də ermənilərə yardımlar ayırmaqdır ki, bu da ikili standartlar, ikili siyasət yürütmək və bu siyasətə sadiqlik nümayiş etdirmək deməkdir.***




Azərbaycanın Qarabağ iqtisadi rayonunda bu zamana qədər məskunlaşan, indi də könüllü şəkildə köç edən ermənilərlə bağlı çağırışlar edir və bu, dərhal da diqqəti cəlb edir, amma onillər boyu öz evinə, torpağına qayıda bilməyən yüz minlərlə müstəqil, suveren bir ölkə vətəndaşı barədə BMT kimi mötəbər bir beynəlxalq təşkilatın məlum dörd qətnaməsi, məcburi köçkünlərimizin vəziyyəti, onlara göstərilməli olan yardım yada da düşmür. Cəmi bir neçə gündür köç edərək Qarabağ ərazisini tərk edən ermənilərə yardım etmək üçün az qala növbəyə düzülən Qərb təsisatları hələ də Azərbaycanın qaçqın və məcburi köçkünlərlə bağlı problemlərini belə görmək istəmirlər və yardım ağıllarına da gəlmir. Bu boyda ayrıseçkiliyi, Qərbin çılpaq şəkildə özünü büruzə verən ikili standartlarını görməmək mümkün deyil.

Azərbaycanın Qarabağ iqtisadi rayonundan köç etməyə məhz Ermənistan rəfindən təhrik edilənlərin ehtiyacları, elə təhrik etdikləri üçün onların özləri, təhrik edənlər tərəfindən ödənilməli olduğu halda, köç edənlərin hələ bircə qayğısı ilə rəsmi İrəvan məşğul olmağa vaxt, macal tapmamış, onlara yardım barədə "həvəsə" düşən Qərb bilməlidir ki, onillər boyu məcburi köçkün həyatı yaşayan azərbaycanlıların bütün problemləri, qayğıları, ehtiyacları məhz ölkəmiz tərəfindən həll olunub, özü də heç bir yardım olmadan. Bilməlidir ki, az qala Ermənistan əhalisinin sayının yarısına bərabər sayda olan məcburi köçkünlərlə bağlı bütün məsələləri həll edən Azərbaycana bu onilliklər ərzində bircə dəfə də yardım müzakirəyə belə çıxarılmayıb. Dövlətimiz bütün məsələlərin, qayğıların, ehtiyacların yardımlar olmadan öhdəsindən gəlib. Azərbaycan dövləti 1993-2019-cu illərdə qaçqın və məcburi köçkünlərin sosial təminatı və digər məsələləri ilə bağlı 10 milyard manat həcmində vəsait xərcləyib. Qərb bilməlidir ki, 2020-2023-cü illərdə hər vahid aylıq müavinət daxil olmaqla hər il üçün 380 milyon manat, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 600 milyon manat, bundan əlavə təhsil və digər xərclər Azərbaycan dövləti tərəfindən ödənilir və bu ödənişlər heç bir yardım olmadan dövlətimiz tərəfindən təmin olunur. Hazırda ermənilərə yardım edilməsi üçün canfəşanlıq edən donor təşkilatlar dəfələrlə ağır, dəfələrlə çətin vəziyyətlə qarşılaşan azərbaycanlıların vəziyyətinə sadəcə müşahidəçi mövqe sergiləyiblər. Bu mövqe isə, təbii ki, ikili yanaşmanın, ikili standartların təzahürüdür və Qərbin ədalətsiz mövqedə olduğunu təsdiqləyir, ayrı-seçkiliyin mövcud olduğunu isbatlayır.

Qərbin ədalətsiz mövqeyini, ikili yanaşmasını, ikili standartlarını təsdiq edən arqumentlər kifayət qədərdir, amma görünür, ayrı-seçkilik etmələri sadalananları ya görmələrinə, ya da etiraf etmələrinə mane olur. Hərdən elə bir təəssürat yaranır ki, elə bil, Qərb qəsdən belə ayrı-seçkilik edir, qəsdən ikili standartlar siyasəti yürüdür ki, ermənilələri ruhlandırıb müharibəni bir daha körükləsin. Təbii ki, bunun da qlobal siyasi situasiyalarda qlobal oyunçuların maraqları naminə olduğu şübhə doğurmur. Amma şübhə, eləcə də təəccüb doğuran, ermənilərin xəyanətkar xislətlərini və hər dəfə uğursuzluğa düçar olmalarını, fiaskolarını görən Qərbin öz imicinə zərbə vurmaq bahasına da olsa belə, mənasız yerə onlara yardımlar ayırmaq niyyətindən əl çəkməməsi, bu məqsədlə ikili yanaşmasından, ikili standartlarından usanmamasıdır.

Erməniəsillilərin ərazilərimizi tərk etməsi faktını işğalçı ölkənin müxalifəti hakimiyyəti ələ keçirmək üçün hakimiyyət əleyhinə bəhanə, arqument hesab etdiyi kimi, Paşinyan da öz növbəsində, bundan istifadə edib Qərbin ətəyindən tutmağa çalışır. "Azərbaycanın etnik təmizləmə siyasəti ucbatından ermənilərin Qarabağdan köçü davam edir. Təhlillər göstərir ki, yaxın günlərdə Qarabağda daha erməni qalmayacaq. Bu, uzun müddətdir beynəlxalq ictimaiyyəti xəbərdar etdiyimiz əsl etnik təmizləmə və depatriasiya aktıdır", deyən erməni baş nazir, eyni ilə 2018-ci ildə olduğu kimi, yenə də Qərbə sığınmağa çalışır və buna görə ölkəsini nə gözlədiyi heç vecinə də deyil. Təbii ki, regionda maraqlarının təminatı, Cənubi Qafqazda mövcudluğu, proseslərdən kənarda qalmaması baxımdan da Qərb üçün onun bu niyyəti tamamilə uyğun gəlir və yardım adı altında proseslərə qatılması istəyi anlaşılandır. Xüsusən də, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər üçün təhlükə görmədiyini bir neçə gün əvvəl Paşinyanın bildirməsini və indi də bunun əksinə fikirlər səsləndirməsini Qərbin nəzərə almaması, əksinə, yardım "həvəsinin" yaranması, Qərbin ikiüzlü siyasət yürüdüldüyünü göstərir. Məhz bu ikiüzlü siyasətlə Qərb indi daha revanşist ünsürlərdən yox, məhz Paşinyanın mövqeyindən faydalanır və Azərbaycanın Qarabağ iqtisadi rayonundan ermənilərin köç etmələri, köçüb getmələri ilə bağlı yayılan görüntülərin Qərb mətbuatında yayımlanması, heç bir səbəb olmadan köçüb gedənlərə orada "qaçqın" damğası vurulması deyilənləri təsdiq edir.

Dırnaqarası "Qarabağ qaçqınları" ifadəsindən məharətlə istifadə etməklə, köç mövzusu, həqiqətən də Qərbin bəzi dairələrində nəzərəçarpacaq dərəcədə təbliğ olunmağa başlayıb və elə bu təbliğatın fonunda da yardımlarla bağlı fikirlər ortaya atılıb. Bütün bunlar isə onu deməyə əsas verir ki, Qərb liderləri köç bəhanəsindən istifadə edərək "kollektiv Qərb"in tərəfinə keçməyə çalışan Paşinyanın süqutunu istəmir və ona maddi dəstək verməyə belə hazırdır. Vəziyyətə layiqincə qiymət vermək, ortaya çıxa biləcək problemin həllinə hazır olmasını bəyan etmək, Qarabağ bölgəsinin əhalisinin reinteqrasiyasında Azərbaycana kömək etmək əvəzinə, Qərb imperializmə xas mövqe tutur. Bu mövqeyi üçün də guya, "Qaçqınları xilas etmək" bir bəhanə kimi istidadə olunur və yenə də Azərbaycana qarşı nəinki haqsızlıq, hətta məkrli plan özünü göstərir, hansıki psevdohumanitar arqumentlərlə Bakıya təzyiq göstərmək, bununla da Qarabağda Azərbaycanın suverenliyini məhdudlaşdırmaq istəyi elə ədalətsiz mövqeyin, ikili yanaşmanın bir başqa təzahürüdür.

Qərb üçün humanitar yardım, hümanizm prinsplərinə hörmət nədənsə, yalandan belə olsa da ancaq ermənilərlə bağlı məsələ müzakirə mövzusu olduqda diqqət mərkəzində olur. Yardımlar ancaq bir ölkə vətəndaşları, yalnız ermənilər üçün nəzərdə tutulubmu? Bəlkə yardım edənlərin gözü başqalarını, özü də həqiqətən yardıma ehtiyacı olanları, həqiqətən də yardım olunmalı olanları görmür? Guya xalqının deportasiyaya, etnik təmizləməyə məruz qaldığını dünyaya göstərmək üçün erməni əsilliləri Azərbaycanın Qarabağ iqtisadi rayonundan köç etməyə məcbur edənlərə humanitar yardım etməyə, onlara maddi dəstək göstərməyə hazır olduqlarını bəyan edənlər, həqiqətən də deportasiyaya, etnik təmizləməyə, hətta soyqırıma belə məruz qalanlar, azərbaycanlılar haqqında niyə belə bir niyyətdə heç zaman olmayıblar? Niyə dünya ictimaiyyəti bircə dəfə də olsa belə bir yardımın, həqiqətən də ədalətli yardımın şahidi olmayıb? Öz maşınları ilə, yaxud xüsusi ayrılmış avtomobillərlə, özü də öz istəkləri, öz xoşları ilə köç edənlərə yardım göstərmək niyyətində olduqlarını bəyan edənlər, bir zaman azərbaycanlıların yalın ayaqla öz yurd-yuvalarını tərk etdikləri zaman yardım haqqında nədənsə heç düşünməyiblər də. Bütün məişət avadanlıqlarına kimi özü ilə götürən və şəxsi istəkləri ilə, tələsmədən, özü də Azərbaycan tərəfinin sivil qaydada yol verdiyinə görə rahat köç edənlərə yardım etmək istəyini bildirənlərin yadına, ayaqyalın, başıaçıq, qorxu içərisində və tələsik halda canını götürüb getməyə məcbur edilənlər, bu zaman hətta öldürülən, əsir götürülən, şikəst edilənlərə yardım etmək düşməyib. İşğalçılıq yolu ilə, qonşu dövlətin ərazisini zəbt etməklə, başqasının ərazisində məskunlaşan və özünə məxsus olmayan əraziləri tərk etmək istəyinə düşənlərin yardıma ehtiyacı olduğu qənaətində olanlar niyə bəs, həqiqətən də ermənilərin etnik təmizləmə siyasətinin qurbanı olan, soyqırımlarla, silahlı təcavüzlə məcbur edilərək, özlərinə məxsus olan, öz dədə-baba torpaqlarını tərk edənlərin yardıma ehtiyacı olduğu barədə heç bir qənaətdə olmayıblar bu vaxta qədər? İndi öz xoşu ilə, yaxud da Ermənistan tərəfinin təhriki ilə köç edənlər üçün yardım barədə fikirləşənlər, ötən əsrin 90-cı illərində məcburiyyət qarşısında, məcbir edilərək, öz yurdlarını tərk edən azərbaycanlıları görmürdülərmi ki, həqiqətən də onlara yardımlar barəsində qərara gəlsinlər? Hər halda, özünəməxsus olan torpaqları, həm də zor gücünə, silahlı təhdidlə, soyqırımla, məcburiyyətlə tərk edənlərin yardıma ehtiyacının, başqalarına məxsus olan torpaqları, özü də xoşluqla tərk edənlərin yardıma ehtiyacından daha çox olduğunu Qərb təsisatları başa düşməkdə çətinlik çəkməzdilər, əgər bunu başa düşmək istəsəydilər.

Azərbaycanın Qarabağ iqtisadi rayonunu tərk edən, özü də könüllü şəkildə tərk edən ermənilərin sayı, öz ərazilərindən məcburi şəkildə didərgin düşmüş, məcburi köçkün və qaçqınların sayı ilə müqayisəyə belə gələ bilməz. Bu gün öz ənənəsinə və xislətinə uyğun olaraq Ermənistan hakimiyyətinin şişirdiyi rəqəmlərə görə belə köç edənlərin sayı azərbaycanlı məcburi köçkün və qaçqınların sayından onlarla dəfə azdır. Deməli, problemin və qayğıların da miqyası onlarla dəfə aşağıdır. Əgər indi həmin o sayda köç edən ermənilərə yardım düşürsə, o zaman bir milyondan çox qaçqına yardım düşmürdümü ki, buna göz yumulurdu? Cəmisi iki milyondan bir qədər artıq əhalisi olan Ermənistana on minlərlə köç edənlərə görə yardım haqqında düşünülür, amma bir milyondan artıq, yəni Ermənistanın əhalisinin az qala yarısı qədər azərbaycanlı qaçqın barədə düşünmək belə yada düşmür. Ərazilərimizdən cəmi bir neçə gündür ki, köç edənlər barədə yardım haqqında qərar müzakirə olunur, amma 30 il müddətində qaçqınlıq həyatı yaşayanlar az qala əsrin üçdə birinə yaxın müddət ərzində hesaba alınmır və barələrində yardım heç müzakirə mövzusu da olmur. Qərbin böyük pafosla dəm vurduğu ali dəyərlər və humanizm budurmu? Çadırlarda, vaqonlarda qalmaq məcburiyyəti ilə qarşılaşan və ac-yalavac halda olan milyondan artıq məcburi köçkünə bu qədər uzun müddət ərzində yardım haqqında düşünməyən xarici donor təşkilatları indi gedib İrəvanda özünə yer etmək üçün hər dona girən, xislətlərinə uyğun olaraq, yerli ermənilərə məhz onlara borclu olduqlarını deyən, dilemma ilə çıxış edən həmin o köç edənlərə yardım etmək az qala prioritet məsələyə çevrilib. Bütün bunlar onu deməyə əsas verir ki, Qərbin ikili yanaşması, ikili standartlar siyasəti çox qabarıq şəkildə özünü biruzə verir və hətta humanitar yardımların göstərilmısində belə ayrı-seçkiliyin olması deyilənləri bir daha sübut edir.

Separatçı rejimin qondarma Ombudsmanı bütün dünyaya üz tutur və

***İnam Hacıyev***




# "DOST" mərkəzləri: vətəndaşların "bir pəncərə"dən faydalanması

***Əhalinin rifah halının daha da yaxşılaşdırılması, bu istiqamətdə mühüm layihələrin həyata keçirilməsi, ölkəmizdə sosial müdafiə sisteminin etibarlılığının ən yüksək səviyyəyə çatdırılması Azərbaycan Prezidenti İlham Əliyevin çoxşaxəli fəaliyyətinin əsas hədəflərindən biridir. "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevrilən "DOST" mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb.***

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir. Ölkəmizdə bu və ya digər lahiyələrin reallaşması onu göstərir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər insanların rifahının daha da yüksəlməsinə yönəldilib. Ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Bu gün ölkəmizdə "ASAN xidmət" mərkəzləri kimi DOST mərkəzlərinin də sayı artır.

DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə Azərbaycan bu sahədə də öz sözünü demiş oldu. Fəaliyyətində sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri qısa zamanda vətəndaşlarımızın etibarını qazanıb. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST konsepsiyası çərçivəsində istifadəyə verilən mərkəzlər vətəndaşlarda məmnunluq yaradıb. DOST konsepsiyası çərçivəsində istifadəyə verilən mərkəzlərdə vətəndaşlar məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji xidmət olmaqla müxtəlif adda xidmətdən rahatlıqla yararlana bilirlər. DOST mərkəzlərində sosial sahələr üzrə 159 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək dəyərləndirilərək xüsusi mükafatlara layiq görülüb, bir sıra ölkələrin də DOST təcrübəsini tətbiq etməkdə maraqlı olduğu diqqəti çəkir. DOST Agentliyinin "Könüllü DOST" proqramı "Gənc DOST", "Gümüşü DOST", "Korporativ DOST", "İnklüziv DOST" və "Distant DOST" altproqramlarını əhatə edir. Könüllülər mərkəzlərdə vətəndaş məmnunluğuna uyğun xidmətlərin göstərilməsinə dəstək verirlər. Proqrama indiyədək 100 minədək müraciət daxil olub, 4 minə yaxın şəxs proqramda iştirak edib. Pensiya yaşına çatmış şəxslərin cəmiyyətə reinteqrasiyası, yaşlı şəxslərin asudə vaxtının səmərəli təşkili məqsədilə təşkil olunan "Gümüşü DOST" altproqramı xüsusi maraq doğurub.







Bu ilin yanvar-avqust aylarında DOST mərkəzləri tərəfindən 460 min vətəndaşa xidmət göstərilib və DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 98 faiz təşkil edib.Hazırda fəaliyyət göstərən 7 DOST mərkəzində sosial sahələr üzrə 159 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ şəkildə təqdim olunur. Ötən dövrdə həmin mərkəzlərdə ümumilikdə 1,7 milyon vətəndaşa xidmət göstərilib. "Könüllü DOST" proqramına isə son 8 ayda 18,5 min müraciət olub və proqrama daha 1002 nəfər cəlb edilib. Dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Fəaliyyət göstərən DOST mərkəzləri vətəndaşların bütün xidmətlərdən "bir pəncərə"yə müraciət etməsinə və "bir pəncərə"dən faydalanmasına imkan verir.

***Nəzakət Ələddinqızı***



## "Bolt"lar üz çevirir...

**Mətanət Məmmədova**

***Nədən narazıdırlar? Hələ də bu barədə məlumatı olmayan varsa, bilsin ki, "Bolt"lar gediş haqqının kartla ödənilməsindən narazıdırlar. Nə üçün narazıdırlar? Bunun tutarlı bir səbəbi var. Səbəb odur ki, "Bolt"ları biz özümüz pis öyrətmişik. Yəni əksər sərnişin həmişə bu taksilərdən istifadə edərkən ödənişi artıq edib. Necə? Məsələn, gedişimiz 3.55, 2.70, 1.80, 4.60 və sair olanda biz bu qəpik hissəni də manat olaraq ödəmişik. Beləliklə də, "Bolt"lar bundan xeyli razı qalıblar. Bir gedişdə 3.55 əvəzinə 4 manat, 2.70 əvəzinə 3 manat, 1.80 əvəzinə 2 və sair qazanıblar. Təbii ki, aramızda elələri də var ki, ödənişi qəpiyə-qəpik ödəyir, bu da sözsüzdür. Lakin məlumatımıza əsasən əksər sərnişin yuxarıda qeyd etdiyimiz kimi, yəni artıqlaması ilə ödəniş edir. Söhbət bunda deyil, halal xoşları olsun.***

Lakin bu kart məsələsi ki, var, bax burada "Bolt"larla bizlər arasında kiçik anlaşılmazlıqlar yaranmağa başlayıb. Belə ki, "Bolt"lar görür ki, müştəri ödəniş üçün kartı seçir, hərdən bir bəhanə ilə sifarişi ləğv etməyə çalışırlar. Məsələn, bu günlərdə bu vasitə ilə ödəniş etdiyim üçün üç sifarişimi ləğv etməli oldum. Onlardan birincisinə sürücünün açıqca kart ödənişilə işləmədiyini, ikincisinə sürücünün hələ çox uzaqda olduğunu bildirməsi, üçüncüsünə isə sürücünün namaza getməli olduğunu deyib sifarişin ləğvini xahiş etməsi səbəb oldu. Bu kimi hallar son vaxtlar "Bolt"lardan istifadə edənlərin əksəriyyətinin başına istənilən an gəlir.

Bəs nə üçün "Bolt"lar belə edirlər? Axı fəaliyyətini bu qayda ilə quranlar müştərinin ödəmə üsullarından hər ikisinə hazır olmalıdırlar. Onsuz da sərnişinlər ödənişi əksər vaxtlarda nəqd ödəyir. Beləliklə də bu, sürücülərin ürəyincə olur. Bəs belə isə kartla ödəniş zamanı nə üçün müştəriyə belə laqeydcəsinə yanaşırlar?

Müştəri nə etsin ki, ödəmə iki cür təyin edilib: nəqd və kartla. Müasir dövrdə də tamamilə kartlaşdığımıza görə, bəzən cibimizdə bir manat nədir, bir qəpik də olmur. Belə olanda isə təbii ki, adam küçənin ortasında əl açıb taksi pulu diləmməyəcək ki... Kartdan istifadə edib mənzilbaşına çatmalıdır da...

"Bolt"lar isə vurğuladığım kimi, bu kart məsələsindən olduqca narazıdırlar. Onsuz da taksidən həmişə istifadə edən adamın cibində hər zaman da pulu olur, bu, başqa məsələ. Hərdənbir istifadə edənlər üçün isə bunun bir qədər fərqli olduğunu düşünərək xəbərdar etmək istədim ki, nə edirlər etsinlər, ciblərində heç olmasa 5-6 manata yaxın hər zaman pul saxlasınlar. Yoxsa harasa təcili getməli olduqda baxacaqlar ki, kartla ödənişi görən "Bolt"lar onlardan üz çevirir. Onlar da birincini ləğv edib ikinciyə, ikincini ləğv edib üçüncüyə keçəcək, yəqin ki, dördüncünü də sürücünün özü ləğv edəcək. Belə olan təqdirdə isə yollarda saatlarla qalmalı, gediləcək yerə yubanmalı olacaqlar.

Bu "Bolt"lara belə bir sual ünvanlamaq istəyirəm ki, bəs necə olur, müştəri ödənişi artıqlaması ilə ödəyəndə heç qalıq hissəni qaytarmaq barədə düşünmürsünüz, lakin ödəməli olduğu əsl məbləğə etiraz edirsiniz? Müştəri nə etsin ki, sizin işiniz budur, bu qaydalar əsasında çalışmağı qəbul etmisiniz? Axı ona da bəzən ucuz və sərfəli bir nəqliyyat vasitəsi lazımdır. O da tələsə bilər. Onun da haqqıdır ki, "Bolt"un təqdim etdiyi ödənişi ödəyərək istədiyi ünvana çata bilsin.

Kim haqlı, kim haqsızdır, bunu "Bolt"lar bir papaqlarını qarşılarına qoyub yaxşıca düşünsünlər. Düşünürəm ki, bu barədə fikirləşmək həm onların özləri, həm də müştəriləri üçün sərfəli ola bilər...

# Uğurla icra olunan sosial dəstək

## *Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14050 mənzil və fərdi ev verilib*







***Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir.***

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür.

### POSTMÜHARİBƏ DÖVRÜNDƏ ƏLİLLİYİ OLAN 324 AVTOMOBİLLƏ TƏMİN EDİLİB

Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. Bu il artıq 750, postmüharibə dövründə 5250, ümumilikdə ötən dövrdə 14050 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olanlara postmüharibə dövründə 324, ümumən ötən dövrdə 7500-dən çox avtomobil verilib. Həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış hərbçilərimizin ailələrinin, habelə həmin tədbirlər zamanı yaralanmış hərbçilərimizin də sosial dəstəklə təminatının hazırda əsas fəaliyyət istiqamətlərindən biridir və bu istiqamətdə müvafiq işlər aparılır.

### 103 MİN ŞƏXSƏ 115 MİN AYLIQ SOSİAL ÖDƏNİŞ TƏYİN OLUNUB

"Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı", "Qəhrəmanlarımız üçün yaşıl işıq" sosial-psixoloji dəstək layihəsi də həyata keçirilir. Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan daha 50-dək şəxs peşə-əmək reabilitasiyasına cəlb edilib. Peşə Əmək Reabilitasiyası Mərkəzində onlar üçün müxtəlif peşələr üzrə kurslar təşkil olunub. Bir qrupu artıq kursları bitirərək müvafiq peşə şəhadətnamələri alıblar. Digərlərinin peşə-reabilitasiya kursları davam edir. Peşə kursu keçən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərdən 7 nəfəri qardaş Türkiyədə əlilliyi olan şəxslər üçün təşkil olunan peşə dərnəklərində təcrübə kurslarında da iştirak ediblər. Müharibə ilə əlaqədar əlilliyi olan daha 2 müdavimin də gələn ay Türkiyəyə təcrübə kursuna göndərilməsi nəzərdə tutulub.

Bütün bunlarla yanaşı, şəhid ailələri üzvləri və müharibə veteranları olan 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 891 şəxsə sığorta ödənişi edilib. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 234 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 49,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.

### UĞURLA İCRA OLUNAN SON NƏSİL PROTEZLƏRLƏ TƏMİNAT PROQRAMI

Statistik rəqəmlərə nəzər saldıqca dövlətimiz tərəfindən bu kateqoriyadan olan insanlara ayrılan diqqət və qayğını görmüş oluruq. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 19,6 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,1 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 93,3 min şəxsə xidmətlər göstərilib və s.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 124 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 304 min xidmət göstərilib. 44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş qazinin, müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Müharibə ilə əlaqədar əlilliyi olan 1990 şəxs 43,1 min reabilitasiya vasitəsi, o cümlədən 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlət qayğısı və diqqət davamlıdır. Tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə iştirakçıları ilə bağlı həyata keçirilən geniş sosial dəstək tədbirləri davamlı olaraq reallaşır.

**Zümrüd BAYRAMOVA**



# Fransanın alətinə çevrilən
# HAYLARIN XAM XƏYALLARI

Təhlil

***Azərbaycanın Qarabağ iqtisadi rayonundan ermənilər "köç" etməyə başlayandan dərhal sonra Fransanın Qarabağ ermənilərini qəbul edəcəyi, Marsel şəhərində məskunlaşdıracağı ilə bağlı sosial şəbəkələrin erməni seqmentində yazılara, fikirlərə, şayələrə rast gəlinirdi, amma bunun həqiqətə uyğun olmadığı, erməni xislətinə uyğun olaraq saxta məlumat olduğu ortaya çıxdı. Fransanın İrəvandakı səfiri Olivye Dekottini Fransanın Qarabağ ermənilərinə qucağını açmağa hazır olması ilə bağlı şayiələri qətiyyətlə rədd etdi. Diplomat bu barədə açıq şəkildə bildirməklə, söz-söhbətə son qoyacağını zənn etdi. Lakin görünür buna nail ola bilmədiyi üçün bərk yanıldı, çünki mənasız olsa da belə hələ də ermənilərin bununla bağlı ümidləri var imiş.***




Ermənilərə məxsus bəzi mətbuat səhifələrində yayılıb ki, guya Marsel şəhərinin meri Benua Payan həmin şəhərin Azərbaycanın Qarabağ iqtisadi rayonunu tərk etmiş erməniləri qəbul etməyə hazır olduğunu bildirib, baxmayaraq ki, bunu təsdiq edən nə bir video var, nə də səs yazısı. Görünür, arzuları, istəkləri ermənilərin başlarını o qədər havalandırıb, o qədər gicəlləndirib ki, bir Avropa ölkəsinin hansısa bir şəhərinin merinin yerinə fikir bildirməkdən, hətta onun belə bir qərar verdiyini ifadə etməkdən çəkinməyiblər. Həqiqətən də bu vəziyyət, yayılan şayələr çox, olduqca gülməlidir, amma etiraf edək ki, tamamilə yerinə düşür. Çünki özünü ermənilərə arxa, dayaq kimi göstərən, hətta ermənilər üçün Paşinyandan da artıq çalışdığı Makronun utanmadan söyləməsi dırnaqarası da olsa, "yazıq ermənilərdə" bir ümid yaradıb ki, yəqin fransız "bacıları" onlar üçün sığınacaq verəcəklər. Özünü ermənidən də betər erməni kimi aparan Makron isə özünü tamamilə eşitməməzliyə, görməməzliyə vurub. "Əgər təkcə bir erməni hücuma məruz qalırsa, deməli, bütövlükdə Fransa hücuma məruz qalmış olur", deyən şəhər merinin də indi səsi çıxmır və onların hamısının yerinə Olivye Dekottini, yəni Fransanın İrəvandakı səfiri Fransanın Qarabağ ermənilərinə qucağını açmağa hazır olması ilə bağlı şayiələri, biz az daha açıq şəkildə desək, erməni arzularını heç yaxına da buraxmamaqla, bunu onların ürəklərində qoyur. Görünür, "bizim susmağa haqqımız yoxdur!", deyərək, ötən ilin oktyabrında meriyanın binası üzərində Ermənistan bayrağını asmaqla öz "bacılarını" şəhərə buraxmaq tamamilə fərqli şeylər imiş və bu, elə saxtakarlıq, yalançılıq, ikiüzlülük baxımından elə iki bacının eyni xislətə sahib olmasının təsdiqidir.

Əlbəttə, etiraf edilməlidir ki, rəsmi Paris tam ermənipərəst mövqedən çıxış edir. Fransa hakimiyyətini haqq, ədalət qətiyyən maraqlandırmır və yalnız erməni maraqlarını nəzərə aldığı göz önündədir, baxmayaraq ki, hələ bir nəticə əldə edə bilməyib və ortaya qoyduğu bir şey də yoxdur. BMT Təhlükəsizlik Şurasında hansısa yolla Fransanın Azərbaycanı "cəzalandırmaq" cəhdi iki dəfə uğursuzluqla nəticələnib, amma buna baxmayaraq Paris hələ də əl çəkmək niyyətində görünmür. Bəli, ermənilərin Təhlükəsizlik Şurasına müraciəti fransızlar tərəfindən hər cür dəstək görüb, amma görünür bunun özünə də indi ermənilərin Marseldə məskunlaşmaq arzuları ilə tamamilə ayrı-ayrı şeylər kimi baxılır. Cənubi Qafqazda bir ölkənin erməniləri öz ərazilərində yerləşdirməsi, onların dövlət qurmalarına da mane olunmaması, qayğılarına belə qalınması tövsiyyəsi, hətta az qala tələbi ilə çıxış edən bir ölkə hakimiyyəti özünün bircə şəhərində "erməni arzularının" ürəklərində qalmaması üçün bircə addım belə atıb, bircə ermənini belə yerləşdirmək barədə qərar vermir, hətta özünü bilməməzliyə vurur, bu barədə düşünmək belə istəmir.

Bu yerdə çox maraqlı bir məqam barədə qeyd etməyin tamamilə yerinə düşəcəyinə əminik və bu əminliklə də xatırladırıq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına verdiyi müsahibəsində Fransa hakimiyyətinə çox dəyərli bir məsləhət vermişdi və tövsiyyə etmişdi ki, əgər Fransa ermənilər üçün ikinci bir dövləti qurmaq istəyirsə, bu dövləti öz ərazilərində qura bilər. Ölkə rəhbərimiz öz müsahibəsində qeyd etmişdi ki, məsələn, çoxlu sayda ermənilərin yaşadığı Marsel ətrafında ermənilər üçün belə bir dövlət qura bilərlər və qoy onlar bu dövləti qursunlar, biz də həmin dövləti tanıyaq. Bəli, xam xəyallara düşən haylar görürlər ki, indi Fransa nəinki ermənilər üçün dövlət qurulması, heç onların məskunlaşması məsələsini belə düşünmür, hətta bir neçə erməninin Marsel şəhərində məskunlaşması şayəsinin belə yalan olduğunu dərhal bildirməklə, onları sadəcə olaraq özündən uzaqlaşdırır, köbud şəkildə desək, rədd edir. O zaman Fransa hakimiyyətinin Azərbaycandan istədiyi nə idi? İstəyirdi ki, onlara, ermənilərə Azərbaycan tərəfi öz ərazisində torpaq da bağışlasın, hələ üstəlik ikinci bir dövlət də qurub versin? Ölkəsinin bir şəhərində belə erməni "bacılarına" sığınacaq vermək istəməyənlərin mövqeləri də, məramları da bununla tam çılpaq şəkildə ortaya çıxır və kimlikləri bəlli olur.

Fransanın müdafiə naziri Sebastyan Lekornu elə hesab etmir ki, Paris hərbi müdaxilə yolu ilə Ermənistanın ərazi bütövlüyünü qoruya bilər və onun bu qənaətdə olması erməniləri başdan eləmək baxımından başadüşüləndir. Fransanın Ermənistandakı səfiri Olivye Dekottini də çox məharətlə, özü də çox "cəld" hərəkət etdi və kəskin şəkildə, birbaşa formada Parisin Qarabağ ermənilərini qəbul etməyə hazır olması barədə fikirləri dərhal təkzib etdi. Çəkinmədən, utanmadan, qızarmadan deyilənləri inkar elədi. Bəli, İrəvandakı Fransa səfiri də hayları başından elədi. Kəskin şəkildə "yox" deyilməklə, ermənilərə başa salınır ki, nə ərazi bütövlüyü, nə də Marsel, yaxud Lion şəhərlərində məskunlaşmaq barədə xəyallara belə dalmasınlar və onlar elə Ermənistanda məskunlaşmalı olacaqlar, problemlərini də özləri qarşılamalı, dərdlərini də özləri çəkməlidirlər. Bax, budur əsl həqiqət və əsl reallıq ondan ibarətdir ki, heç kim sonda ermənilərin yerinə çətinliyi, dərdi çəkən deyil. Pafoslu sözlər, haylar barədə fransız "bacılarının" fikirləri, bəyanatları da quru, boş sözlərdən başqa bir şey deyilmiş.

Ümumiyyətlə, haylara tarix boyu çoxlu sözlər, vədlər verildi, amma nə həmin sözlərin, nə də vədlərin reallığa çevrildiyinin şahidi olan olmadı. Bu günə qədər qızışdırılaraq qarşıdurmalara, müharibələrə sövq edilən ermənilər məğlubiyyətlə qarşılaşdıqları zaman, kimlərinsə təhriki ilə məskunlaşdıqları yurdun sahibinə qarşı etdikləri nankorluqlarının fonunda həmin ərazilərdə yaşamağa davam edə biləcəklərinə inanmayaraq köç etdikləri zaman onlara nə Marseldə, nə də Lionda məşkunlaşmaları üçün quruca təklif də edilmədi. Bu mövzuda danışılanları da təkzib etməklə, bildirildi ki, indi məskunlaşma problemi ilə qarşılaşan erməniləri Fransada, onun Marsel və Lion kimi şəhərlərində görmək istəmirlər. Deməli, ermənilər Fransaya elə Ermənistanda, Cənubi Qafqazda lazım imiş ki, hansısa məqsədlər üçün alət olaraq istifadə edilsinlər və onlara sadəcə olaraq, istifadə olunan alət kimi baxılır. Əslində, haylar bu qənaətə çoxdan gəlməli idilər və doğru, düzgün nəticələrini də çoxdan çıxarmalı idilər. Çoxdan nəticə çıxarmalı idilər ki, Fransanın vədləri ancaq quru, boş sözlərdən ibarətdir və bu ölkənin mahiyyəti haylara çoxdan bəlli olmalı idi. Bir zamanlar aldadılaraq, "Böyük Ermənistan" vəd edənlərin də kimlər olduğunu haylar hamıdan yaxşı bilirlər və 44 günlük müharibədə, eləcə də sonuncu antiterror tədbirlərində qarşılaşdıqları itgilərə, faciələrə kimlərin oyununa görə düşdüklərini də unutmamalıdırlar. Unutmamalıdırlar ki, ötən əsrin sonlarında onlar məhz Fransada qurulan oyunlarla alətə çevrildilər və indi özlərinə "bacı" hesab etdiklərinin, yenə də dəstəyinə ümid etdiklərinin oyunlarına yenə də alət olmağa könüllü şəkildə hazırdırlar. Yenə də haylar illüziyaların əsiri olaraq yaşamaq istəyirlər və görünür, hələ də nəticə çıxara bilməyiblər və xəstə təxəyyüllərinin öhdəsindən hələ də gələ bilmirlər. Doğrudur, belə bir məsəl var ki, zaman hər şey üçün dərmandır, hər şeyi, hər kəsi müalicə edir, amma görünür həmin o zaman hayları hələ də müalicə edə bilməyib ki, öz xəstə təxəyyüllərindən də, onları alət edərək xəstə təxəyyülə salanlardan da əl çəkə bilmirlər.

Heç şübhəsiz ki, zamanın da müalicə edə bilmədiyi hayların xəstə təxəyyüllərindən Fransanın mütəmadi olaraq məharətlə istifadə etməsi gözləniləndir. Əlbəttə ki, indi də Paris Şəhər Şurasının Qarabağ ermənilərinə Fransa paytaxtının simvolik fəxri vətəndaşlığının verilməsi ilə bağlı yekdilliklə qətnamə qəbul etməsindən ermənilər ruhlana, yenə də xam xəyallara düşə bilərlər. Amma haylar dərk etməlidirlər ki, onlara vətəndaşlıq verilmir, xam xəyallara düşmələri üçün də səbəb yoxdur. Dərk etməlidirlər ki, diqqət etməli açar söz burada "vətəndaşlıq" yox, məhz "simvolik" sözüdür. Yəni, Marsel, yaxud Lion şəhərlərində məskunlaşmağa icazə verməyən "bacıları" ermənilərə "vətəndaşlıq" deyil, "simvolika" verirlər və yenə də bununla başlarını aldadırlar. Əslində, hayları ələ salırlar və sırf onların xislətlərindən, torpaq, məskunlaşma, vətəndaşlıq barədə acgözlüklərindən istifadə edərək, onları ələ alırlar, əllərinə heç nə vermirlər. Eyni ilə Marsel, yaxud da Lion şəhərində sığınacaq vermədikləri kimi. Pafoslu sözlərlə erməni sevgisi sərgiləyənlər köç edənlərə Marsel barədə xam xəyallarına son qoymalı olduqlarını, onları heç kimin qəbul etməyə hazırlaşmadığını Ermənistandakı səfirin dili ilə çox kəsə, həm də kəskin şəkildə bildirirlər.



Əsl reallıq, çılpaq həqiqət budur ki, Fransanın ermənipərəstliyi bu ölkənin bölgədə, Cənubi Qafqazda qarşıdurmaların davam etməsi istəyi ilə bağlıdır. Ermənipərəst mövqeyindən çıxış edərək indi də Ermənistanı silahlandırmaqla məşğul olan Fransa bununla bölgədə gərginliyi saxlamaq, sülh prosesinə mane olmaq niyyətini gizlətmir. Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında reallaşmalı olan sülh danışıqlarını pozmaq yönündə fəaliyyətindən qalmayan Fransa, Qarabağda erməni separaçılarına dəstək verməklə, Ermənistanı silahlandırmaqla beynəlxalq hüququn norma və prinsiplərini də kobud şəkildə pozur. Emmanuel Makron hökumətinin bölgədə sülh və sabitliyə qarşı açıq-aşkar şəkildə təhdid yaratmağa, maneçiliyə yönələn fəaliyyəti Cənubi Qafqazda nüfuz əldə etməyə, geosiyasi itgilərini bərpa etməyə hesablanıb və bu məsələdə ermənilər alət hesab olunur və alət olmağı haylar özləri də həvəslə qəbul edirlər.

Artıq bəllidir ki, çoxdandır Makron Fransadakı erməni diasporunun, erməni icmasının təsiri altındadır. Fransa liderinin həmin o erməni diasporunun, erməni lobbisinin maliyyəsindən faydalandığı da sirr deyil. Belə olan halda, Emmanuel Makronun özünü ermənidən də betər erməni kimi aparması, haylara özlərində də guya daha çox diqqətlə yanaşması, bir sözlə, əl-ayağa düşməsi başadüşüləndir. Xüsusən də, hazırda Fransanın ictimai-siyasi, milli böhran içində olduğu vaxt bu, daha yaxşı anlaşılandır. Bir Avropa ölkəsi olan Fransada idarəçilik zəifləyib, talanlar törədilir və xaos baş alıb gedir. Həmin o Avropa ölkəsi dediyimiz dövləti dünya ictimaiyyəti istismarçı dövlət olaraq tanıyır və belə də qəbul edirsə, Fransanın adına sülhyaratma, demokratiya anlayışı heç cür şamil oluna bilməz. Fransa hakimiyyəti tərəfindən bəyan edilənlərin dəyərinin nə qədər olduğu da, mahiyyəti də çoxdan bəllidir. Artıq daha yaxşı bəlli olmalıdır ki, ermənilərə çox sözlər, vədlər verən Fransa hakimiyyəti bir şəhərdə hayların məskunlaşmalarına görə daş atıb baş tutursa, fransız "bacıları" hayların əvəzinə nə döyüşməyəcəklər, nə yurdsuz qalanda onların necə məskunlaşmalarını heç veclərinə də almayacaqlar. Bir sözlə, Fransa haylara alət kimi baxıb, indi də elə baxır və onların xam xəyalları tamamilə mənasızdır.

***İnam Hacıyev***



# “Bütün həyatımı və xoşbəxt günlərimi Elşənlə birlikdə dəfn etdim”














## *Şəhid ailəsi ilə müsahibə*




Vətən müharibəsi şəhidi Elşən Habil oğlu Müslümovun ailəsinin SİA-ya müsahibəsini təqdim edirik:

**Anası Şövqiyyə Müslümova:**

**- Oğlunuz haqqında bizə ümumi məlumat verə bilərsiniz? Daha sonra ətraflı şəkildə suallarımıza keçid edək.**

- Elşən 1995-ci il oktyabr ayının 2-də Bakı şəhəri Yasamal rayonunda dünyaya gəlib və elə Yasamalda da böyüyüb. Əslən Ağsu rayonunun Kalva kəndindəndir. Təhsilini 2002-ci ildə 286 saylı tam orta məktəbdə alıb. 2011-ci ildə Bakı Humanitar Kollecin ”Turizm və otellərin idarə olunması” fakültəsinə daxil olub. Uşaq yaşlarından karate ilə məşğul olub. 2014-cü ildə Yasamal rayonundan Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində həqiqi hərbi xidmətə çağırılıb.

Nümunəvi hərbi xidməti zamanı Çavuş rütbəsi ilə təltif olunmuş, həm manqa komandiri, həm də məxfi rabitəçi olmuşdur. Təlimlər zamanı atıcılıq üzrə yüksək yer tutmuşdur. Hərbi xidmətini 2016-cı ildə Fəxri fərman və təşəkkürnamə ilə başa vurub.

Elşən haqqında o qədər çox danışmaq olar ki   Mən körpəliyindən bilirdim ki, o necə oğul olacaq. O, tamam fərqli idi, öz yaşıdlarına heç bənzəməzdi. Bayrağına çox bağlı olub.

**- Sizinlə tez-tez telefon əlaqəsi yaradırdı?**

- Arada zəng edir və yaxşı olduğu barədə məlumat verirdi. Orada vəziyyətin necə olduğunu bizə əsla deməzdi. Deyirdi ki, “Mən məxfi rabitəçiyəm və danışmaq olmaz”. Elşənin bir şüarı var idi ki, “30 ildən sonra gedən torpaqları alıb ilk qədəm qoyanlardan biri olduğum üçün o qədər qürur duyuram ki, çox fəxr edirəm”. Bunu elə ürəkdən deyirdi ki

**- Elşən xasiyyətcə necə biri idi?**

- Ailəsinə çox bağlı olub. Bu gün anasının əllərini-ayaqlarını və saçlarından öpən neçə oğul var?! Elşən belə oğul idi. Mənə “Anam” deyə səslənərdi. Bir gün mənə dedi ki, “Cənnət anaların ayaqları altındadır. Hansı övlad ki, hər gün gəlib anasının saçlarından öpərsə, o sorğu-sualsız cənnətə düşəcək”. Ona baxıb deyirdim ki, “Oğlum, sənin üzündən-gözündən nur yağır. Sən niyə belə hər kəsdən fərqlisən, mərhəmətlisən?”.

Döyüş yoldaşları bizə danışmışdı ki, oralar elə soyuq idi ki, oktyabr ayı da çox soyuq idi. Elşən yaralı dostlarına paltarlarını soyunub verirmiş. Dincəlmək üçün əyləşənlərə deyirdi ki, “Gəlin kürəyimizi bir-birimizə dayayıb isinək”. O, bu qədər mərhəmətli idi.

**- Atası ilə dost idi?**

- Elşən atası ilə fəxr edirdi. Deyirdi ki, mənim idealım atamdır. Atasına çox bağlı idi və çox bənzəyirlər. O şəhid olduqdan sonra bir daha anladım ki, atasını, anasını və yoldaşını sevən bir oğul torpağını da sevərmiş.

Atası ona 16 yaşında avtomobil hədiyyə etmişdi. Avtomobilinin şüşəsində hər zaman gerb şəkli olardı. Deyirdi ki, “Bu, mənim dövlətimin atributudur”.

**- Az da olsa təsəllini nə ilə tapırsınız?**

- Onun üçün nə etsək də, ürəyimiz heç cür soyumur. Hər acının üstü az da olsa qapanır. Amma bu elə acıdır ki, onu heç nə ilə izah etmək mümkün deyil. Tək təskinlik balasıdır. Ən azından biz dünyadan köçdükdən sonra Elnazım atasının adını yaşadacaq. Elşənin ürəyi qızında döyünür. Elşənə çatana qədər onun gəlməyəcəyini qəbul etməyəcəm. Hər gün gözüm qapıdadır və onu gözləyirəm. Elə bilirəm ki, bir gün gələcək. Ona gedib çatana qədər gözləyəcəm. İnşallah, cənnətdə qovuşarıq.

**- Deyirlər “Analar hiss edir”. Heç hiss etmişdinizmi Şəhid olub?**

- Müharibəyə yollanandan bizi yoldaşına, yoldaşını da bizə tapşırırdı. Hiss etmişdim. Çünki oğlumu tanıyırdım. Bilirdim ki, Elşən bizi bu qədər vaxt xəbərsiz qoymaz. Elşən varsa, torpağın altından da olsa bizə zəng edəcək. Biz onunla nəfəs alırdıq. Artıq iki gün zəng gəlmədikdə əlimi üzdüm. Həmişə deyirdim ki, allahım, nolar, oğlum əsir düşməsin”. Ən çox qorxduğum bu idi. Çünki əsirlikdə nələr baş verdiyini hər kəs bilir.

Qohumlarımız belə şəhid olduğunu bilirdi. Amma heç kimin cəsarəti çatıb bizə bunu deyə bilmədi. Oğlum 19 sentyabr günü evində cəmi yarım saat qonaq oldu.

**- Oğlunuzun xatirəsini hansı formada əbədiləşdirmək istəyərdiniz?**

- Yasamalı çox sevirdi. Hər zaman deyirdi ki, mən Yasamaldan başqa yerə getməyəcəm. Hətta atası onun üçün başqa bir yerdən ev də almışdı. Yaşadığı küçəyə də öz adı verildi. Hətta Yasamalda İkinci Fəxri Xiyabanda dəfn olundu. Yenə də ömürlük Yasamalda qaldı.

Çox istəyərəm ki, oxuduğu məktəbə də adı verilsin. Dünya durduqca oğlumun adı yaşasın istəyirəm.

Bütün həyatım və xoşbəxt günlərimi Elşənlə birlikdə dəfn etdim. O günlər bir də heç vaxt geriyə qayıtmayacaq. Mən ona körpəlikdən “Şah əsərim” deyirdim. Bir övlad ailənin əsəridir.

**Atası Habil Müslümov:**

**- Oğlunuzu necə xatırlayırsınız?**

- Elşən sanki ailədə də, nəsildə də seçilmişdi. O, çox ailəcanlı olub və ata-anasına çox bağlı idi. Mənimlə dost idi. Hər axşam evə gələndə anasını və məni qucaqlayıb əllərimizdən öpərdi. Vallah heç təsəvvürümə belə gətirməzdim ki, üç ildir Elşənsiz qalmışam (red:ağlayır). Çox ağır bir dərddir.

**- Başqa övladlarınız da var?**

- Elşəndən başqa bir oğlum da var. Amma Elşənin yeri tamam başqa idi. Onu heç kim və heç nə əvəz edə bilməz.

**- Son dəfə nə zaman danışdınız?**

- Müharibə dövründə oktyabr ayının 6-da son dəfə zəng etdi. Son sözü o oldu: “Ata, gəl biz vidalaşaq. Ola bilsin ki, bir də görüşmədik”. Danışa bilmirəm, o qədər ağırdır ki

Həyat yoldaşı Nəzrin Müslümova

**- Yoldaşınız döyüşə yollanmağı barədə sizə məlumat vermişdi?**

- Xeyr, biz bilmirdik. Sentyabr ayının 1-i təlimlərə yollandı. Gözləyirdik ki, üç günün tamamında qayıdacaq. Amma belə olmadı. Sonra da müharibə başladı. Onunla tələbə yoldaşı olmuşuq və 11 ildən çoxdur ki, bir-birimizi tanıyırdıq. Bu illər ərzində onun necə şərəfli və qeyrətli biri olduğuna bir daha əmin oldum. Vətənini və millətini çox sevirdi. Ona görə bilirdik ki, müharibə başlayan kimi Elşən gedəcək.

*Ardı Səh. 11*

# “Bütün həyatımı və xoşbəxt günlərimi Elşənlə birlikdə dəfn etdim”







Əvvəli-Səh-10

**- Müharibə dönəmində sıx-sıx danışırdınız?**

- Çalışdıqca bizimlə əlaqə saxlayırdı. Hər dəfə mənə deyirdi ki, narahat olma, qayıdacağam. Amma qismət

**- Onsuz keçən bu illər sizin üçün nə ifadə edir?**

- Bunu sözlərlə izah etmək çox çətindir. Bu, həm şərəfli, həm də çox ağrılı idi. Çalışıram ona layiq olum. Bir qızımız var və adı Elnazdır. 3 yaşı var. Elşən şəhid olduqda qızımız 6 aylıq idi. İnşallah, o da atasına layiq olar və onun adını həmişə uca tutar (red: ağlayır).

**- Qızınızın adını kim qoyub?**

- Adını Elşənlə birlikdə bizim sevgimizi yaşatsın deyə qoymuşuq. Burada ikimizin adından da hissələr var. Elşən dedi ki, qoy bizim sevgimiz Elnazla böyüsün. Həqiqətən də elə oldu. Bizim sevgimiz Elnaz böyüdükcə böyüyəcək.

**- Elnaz atasını soruşurmu?**

- Şəkillərinə baxıb “Ata” deyir. Hələ tam olaraq nə baş verdiyini dərk etmir. Bəzən mənə sullar verir. Aciz qalıram, cavab verə bilmirəm. İnşallah, böyüdükcə atasının necə qəhrəman olduğunu və şərəfli bir yolla getdiyini ona izah edəcəyəm.

**- Qızınızla bağlı arzuları var idi?**

- Qızına çox bağlı idi. Həmişə deyirdi ki, ata sənə qurban olsun, ata sənə heyran olsun, Elnazım. Gecələr oyanıb yeməyini verirdi. Elnazı öz qucağında yatırırdı. Bunların hamısını kadra almışam. Bəzən deyirəm, yaxşı ki, hər şeyi kadra alıb çəkmişəm. Beləliklə, Elnaz da böyüdükcə bu kadrlara baxıb görəcək ki, atası onu nə qədər çox sevib.

**- Elnaz atasına bənzəyir?**

- Elə ən çox atasına bənzəyir. Hətta xasiyyətləri, əllərinin quruluşu və sevdiyi yeməklər də eynidir.

**- Birgə olduğunuz hansı günü hələ də unuda bilməmisiniz? Elə hansı xatirəniz var?**

- Onunla keçirdiyim heç bir günü unuda bilmərəm. Biz onunla tamam başqa idik. Həm tələbə yoldaşı, həm dost, həm sirdaş idik. Elşən mənim arxam-dayağım idi. Hər şeyimi onunla bölüşürdüm. Onun haqqında danışmaq mənim üçün çox çətindir. Bunun nə olduğunu ancaq yaşayanlar anlaya bilər.

**- Son mesajı sizə nə olub?**

- Son dəfə oktyabrın ayının 6-sı danışmışdıq. Mənimlə çox yaxşı danışdı. Deyirdi: ”Fəxr edirəm ki, bu torpaqlara ilk addım atanlardanam. Özü ilə qürur duyurdu. Şəhid olduqdan sonra döyüş yoldaşları bizə söylədi ki, Elşənin ləqəbi “Cəngavər” idi. O öz igidliyi ilə seçilirdi.

Oktyabrın 7-si son dəfə çox qısa zəng etdi. Dedi ki, ola bilər bir həftə zəng etməyim. Set yoxdur. Elə də oldu. Oktyabrın 7-dən sonra bir həftə səs çıxmadı. Gözləyir, içimizdəki ümidi öldürmürdük. Oktyabrın 14-ü, yəni bir həftənin tamamında xəbər gəldi ki, şəhid olub. Hiss etmişdim ki, nə isə baş verib. Müharibəyə yollanandan içimdə qorxu var idi. Sadəcə inanmazdım ki, Elşənə nəsə ola. Mən onu ölümsüz təsəvvür edirdim. Həqiqətən də, ölümsüzlüyə qovuşdu.

**- Tanışlıq hekayənizi danışa bilərsiniz?**

- Tələbə yoldaşı olmuşuq. 3 il birlikdə oxumuşuq. Bir partada əyləşirdik və günümüz bir keçib. 2011-ci ildən onu tanıyıram.

**- Elşənin xatirəsinin hansı formada əbədiləşdirilməsini istəyərdiniz?**

- Əlimizdən gəldiyi qədər onun adını yaşatmağa çalışırıq. Adına kitablar çap etdirmişik və iki küçə onun adını daşıyır. Həmin küçədə abidə də ucaldılıb. İnsan nələrsə etməyə çalışır ki, az da olsa, təsəlli tapsın. Amma bu ağrını heç nə unutdurmur.

***Ayşən Vəli***

# “Fransa Ermənistandan alət kimi istifadə edir”



**POLİTOLOQ ŞƏRH ETDİ**

“Fransa Ermənistandan alət kimi istifadə etməklə Cənubi Qafqaza təsir imkanları əldə etməyə çalışır. Ermənidən çox erməni olduğunu göstərməyə çalışan Makron rejimi özünün islamofobiya, antitürk siyasətini reallaşdırmaq üçün, məhz erməni amilindən istifadə etməyə cəhd göstərir”. Bunu SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.

Onun sözlərinə görə, biz bundan əvvəl də, yəni otuz il ərzində Fransanın erməni maraqlarından çıxış etdiyinə şahidlik etmişik, amma Makronun gəlişi ilə bu münasibətlər Azərbaycana qarşı açıq düşmənçilik mövqeyinə keçib: “Məşhur fransalı siyasi analitik, jurnalist və yazıçı Alen Soralın da dediyi kimi, “Makron Rotşildin bankında çalışan kukla, lazımi yerdə, lazımi sözü deyə bilən robot, şən homoseksualdır. Ondan qabaqkı liderlər əclaf, satqın olsalar da, ən azından şəxsiyyət idilər. Makron isə darmadağın bir insandır”. Həqiqətən də, Makronun davranışları Fransanın indiyə qədər dünya siyasətindəki roluna çox ciddi şəkildə zərbə vurub və bunun fransızlar özləri də etiraf edir. İndi isə Afrikadan qovulan Fransa, “kiçik bacı”sı vasitəsilə nəyin bahasına olursaolsun Cənubi Qafqaza soxulmaq istəyir. Odur ki, bütün imkanları ilə Azərbaycan və Ermənistan arasında gərginliyin qalması üçün addımlar atır. Ermənistan isə, öz növbəsində, aldığı ağır məğlubiyyətlərdən, diplomatik uğursuzluqlardan nəticə çıxarmayaraq yenə də bölgədə gərginlik axtarışında olan qüvvələr üçün alət olmaqda davam edir”.

R.Bayramov onu da bildirdi ki, Fransa üçün öz maraqlarını təmin etmək baxımından bölgədə yeni eskalasiya vacibdir və rəsmi Parisi yeni hərbi əməliyyatlar olacağı halda ermənilərin hansı vəziyyətə düşəcəyi çox az maraqlandırır: “Əsas odur ki, gərginlik olsun və Fransa da bu gərginlikdən istifadə edərək “kiçik bacı”nı qorumaq adı altında bölgəyə soxulsun. Başqa sözlə desək Fransanın Ermənistan sevgisinin arxasında heç də erməni maraqları dayanmır. Fransanın Ermənistan dostluğunun nə zamana qədər davam edəcəyinə gəldikdə isə nə qədər ki, Ermənistan alət rolunda oynamaqda davam edəcək və nə qədər ki, Fransanın Cənubi Qafqazla bağlı siyasətində dəyişiklik olmayacaq, nə qədər ki, Fransadakı erməni lobbisinin rəsmi Parisin siyasətinə təsir imkanları qalacaq, bu, belə də davam edəcək. Amma yenə təkrar edirəm, bu birlik, sadəcə, maraqlar üzərində qurulan birlikdir. Yoxsa ki, Fransa və Ermənistanı bir-birinə bağlayan tək ortaq cəhət onların törətdikləri qətliamlar, insanlıq əleyhinə cinayətləridir”.

***Gülyana***

# Ulu Öndər Azərbaycanı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarıb

*Gəncə şəhərində "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*




"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Gəncə şəhər təşkilatı oktyabrın 5-də Heydər Əliyev Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.



Sonra Gəncə Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. Vurğulayıb ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər ölkəmizin tarixinə sosial-iqtisadi yüksəliş mərhələləri kimi daxil olub. Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ərzində böhran həddində olan ölkəmiz dahi şəxsiyyətin iti zəkası, fədakar əməyi, böyük zəhməti sayəsində tərəqqiyə doğru inamlı addımlayıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qeyd edib ki, böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi, istedadı hər bir azərbaycanlı üçün məktəbdir. Dahi şəxsiyyət Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkib və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə edib.



YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış, müstəqil Azərbaycan dövlətçiliyinin siyasi-iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olması arzusunu təmin edərək fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşar ictimai-siyasi lider kimi hələ sağlığında canlı əfsanəyə çevrilərək ürəklərdə əbədi bir heykəl ucaldıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsinə çevrilib. Bu gün Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan Respublikasının dövlət müstəqilliyi etibarlı əllərdədir. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın Ulu Öndər tərəfindən müəyyənləşdirilən inkişaf xəttini Prezident İlham Əliyev uğurla davam etdirir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Naqif Həmzəyev vurğulayıb ki, müdrik dövlət xadimi, görkəmli siyasətçi, Ulu Öndər Heydər Əliyev ölkəmizin və millətimizin müqəddəratının həll olunduğu son dərəcə mürəkkəb və təhlükəli məqamlarda öz üzərinə düşən xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirərək ölkəmizi zamanın ağır sınaqlarından şərəflə çıxmasına nail oldu. Dahi şəxsiyyət Azərbaycanı bütün dünyaya humanist dövlət kimi tanıtmağı bacardı.

Milli Məclisin deputatı Müşfiq Cəfərov söyləyib ki, Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirib. Bu gün Ümummilli Liderin və bütün şəhidlərin ruhu şaddır, çünki müqəddəs missiya yerinə yetirildi.

Partiya veteranı, ərazi partiya təşkilatının sədri Mobil İmanov, Gəncə Dövlət Universitetinin dosenti Nərgiz Rəsulova, partiyanın gənc fəalı Cəvahir Şabanova çıxışlarında qeyd ediblər ki, ömrünün hər anı ilə ölkəmizin siyasi təqvimində özünəməxsus yeri olan dahi şəxsiyyətin respublikamıza rəhbərlik etdiyi tarixi dövrdə gördüyü əvəzsiz işlər Azərbaycanı beynəlxalq arenada böyük nüfuza və söz sahibinə çevirdi.

Sonda Gəncə şəhərinin ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# Dünya oksigensiz boğulur -SOS



***Ekoloji çirklənmə geniş təsirləri olan qlobal problemdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin 99%-i, yəni demək olar ki, hamısı çirklənmiş hava ilə nəfəs alır. Effektiv müdaxilə olmasa, 2050-ci ilə qədər havanın çirklənməsi səbəbindən vaxtından əvvəl ölümlərin sayının 50% artacağı proqnozlaşdırılır.***

## Çirkli hava hər il 7 milyon can alır

Havanın çirklənməsi insan sağlamlığı üçün ən böyük təhlükələrdən biridir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası hər il təxminən 7 milyon insanın vaxtından əvvəl ölümünə səbəb olan çirkli havaya qarşı maarifləndirmə və qlobal tədbirləri səfərbər etmək məqsədilə sentyabrın 7-ni "Beynəlxalq Təmiz Hava Günü" elan edib. Beynəlxalq Təmiz Hava Günü ilk dəfə 2020-ci ildə qeyd olunub.

Havanın çirklənməsi insanların və ekosistemin sağlamlığına birbaşa təsir göstərir. Dünyada hamımız eyni havanı paylaşırıq və nəfəs alırıq. Ona görə də atmosferin qorunmasında, sağlam havanın təmin edilməsində hər kəsin üzərinə düşən vəzifə və öhdəliklər var.

Havadakı kiçik, görünməz çirkli hissəciklər ağciyərlərimizə, qan dövranına və bədənimizə dərindən nüfuz edir. Bu hissəciklər insult, xroniki tənəffüs xəstəlikləri və ağciyər xərçəngindən ölümlərin təxminən üçdə birinin və infarktdan ölümlərin dörddə birinin səbəbkarıdır.

## Daşın altına əlini kim qoyur?

Havanın çirklənməsinin transsərhəd xarakteri problemin həlli üçün yerli, milli, regional və qlobal miqyasda tərəfdaşlığı zəruri edir. Bu kontekstdə çirklənmənin azaldılması və havanın keyfiyyətinin yaxşılaşdırılması istiqamətində atılacaq addımlarda BMT-yə üzv dövlətlər, QHT, beynəlxalq və regional təşkilatlar, özəl sektor və vətəndaş cəmiyyəti arasında əməkdaşlıq həyati əhəmiyyət kəsb edir.

Bütün ölkələri təhlükə altına salan ekoloji çirkli hava problemi davamlı inkişafa maneələrdən biri hesab olunur. BMT-yə üzv dövlətlər 2030-cu ilə qədər havanın, suyun və torpağın təhlükəli kimyəvi maddələrlə çirklənməsini və çirklənmə nəticəsində ölənlərin sayını əhəmiyyətli dərəcədə azaltmağı hədəfləyirlər.

BMT-nin Dayanıqlı İnkişaf üzrə Konfransının "Bizim İstədiyimiz Gələcək" adlı yekun bəyannaməsində ölkələr, dayanıqlı şəhərlər və yaşayış məntəqələri kontekstində sağlam hava keyfiyyətini dəstəkləyən, davamlı inkişaf siyasətini təşviq etməyi öhdələrinə götürdülər. "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" də qəbul edir ki, havanın çirklənməsinin azaldılması Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda mühüm mərhələdir.

Havanın çirklənməsi və iqlim böhranı Türkiyədə əhalinin sağlamlığı üçün həyati təhlükələr yaradır. Havanın çirklənməsinin qarşısını almaq, iqlim dəyişikliyini ləngitmək və bununla da həm insanların sağlamlığını, həm də həyatını qorumaq üçün nə etməli olduğumuzu bilirik:

## Çıxış yolu nədir?

Havanın çirklənməsi sistematik şəkildə izlənilməli və şəffaf şəkildə ictimaiyyətə çatdırılmalıdır, hər kəs bir gün nəfəs ala bilməyəcəyinin fərqində olmalı, ekoloji təmiz hava üçün əlindən nə gəlirsə etməlidir. Ümumdünya Səhiyyə Təşkilatının hava keyfiyyəti qaydalarına uyğun olaraq havanı çirklənmədən qorumaq üçün lazımi qanunlar qəbul edilməli və güzəştsiz şəkildə həyata keçirilməlidir.

Kömür, neft və təbii qaz kimi əsaslı enerji istehsalından uzaqlaşmalı və bərpa olunan enerjiyə investisiyalar edilməlidir. Enerji, nəqliyyat, sənaye, istilik, şəhər və tullantı siyasətləri, vətəndaşların sağlam ətraf mühitdə və təmiz havada yaşamaq hüququ perspektivi ilə yenidən işlənməli və vaxt itirmədən həyata keçirilməlidir. Lakin bu keçid dünya üzrə həmin sahələrdə çalışan milyonlarla işçinin işsiz qalmasına səbəb olmamalı, onların iş ilə təminatı üçün mexanizm düşünülməlidir.

Əslində, Beynəlxalq Təmiz Hava Günü, hava çirkliliyi ilə mübarizə istiqamətində fərdi və cəmiyyət olaraq nələr edə biləcəyimizi düşünmək üçün bir fürsətdir. Ekoloji keyfiyyəti artırmaq üçün edə biləcəyimiz çox şey var. Məsələn, daha az avtomobil istifadə etmək, enerji qənaətini təmin etmək, təkrar emala yararlı məhsulları seçmək, ətraf mühitin dostu olmaq. Dünya hamımızın evidir, içində oksigen olmayan ev nəhəng bir qəbristanlığa dönmədən tədbir görmək şərtdir.

***Lalə Mehralı***

# AİLƏ – ömrün yolyoldaşı...



*Sadəcə dörd hərf – ailə... İki nəfərin nikahda bir-birinə uzun bir yolçuluqda yolyoldaşı olmağa söz verdikləri an "doğulur" ailə. İlk cümləsi "xoşbəxt olun"la başlayan, lakin qarşıda hələ ömrün düz dörd fəslindən bəhs edəcək kitabın yazılmasını bir imza ilə gerçəkləşdirənlər gətirir bu ailəni dünyaya. Bir-birinə ömür-gün yoldaşı olmaq istəyənlərin bir qələmlə yazdıqları ailə kitabı, ömür kitabı... Dörd fəsilli bu kitabı vərəqləyərkən öncə təbiətlə insanın vəhdəti gəlir gözlər önünə. İnsanmı təbiəti, yoxsa təbiətmi insanı yaratmışdır? Bu, təbii ki, hələ bir sirr olaraq qalmaqdadır. Lakin bu iki varlığın oxşarlığıdır insanı düşündürən. Nə qədər bənzərdir təbiətlə insan... Uşaqlıq ilk bahar, gənclik bahar-yay, orta yaş payız, qocalıq qışdır. Hələ insan kimi uzunömürlü ola bilən ailələr də təbiətə, onun dörd fəslinə bənzərdir.*

### Yeni qurulan ailə ilk bahara bənzəyir

Torpaq altından yavaş-yavaş pöhrə verən və gələcəyin barı-bərəkəti olacaq taxıl zəmilərinə, fidanları yenicə əkilən, lakin qarşıda dünyaya ətir saçacaq gül plantasiyalarına bənzəyir. Ailənin ilk baharında iki gənc ev qurmağa, qoca nənələrimiz demişkən, yurd-yuva sahibi olmağa can atırlar. Ata-analar gənc ailənin qayğıları ilə yaşayır, onların da ev-eşik sahibi olmaları üçün çalışırlar. Bir azdan baharın ən gözəl çağı – min bir rəngli çiçəklərin təbiətə səpildiyi, hər yerə ətrini saçdığı dövrü başlayır ailənin

Dünyaya körpə gəlir. Dünənədək iki gəncin sevgisiylə dolan mənzilə yeni nəfəs qatılır. Ev-eşik, divarlar körpə ətri verir. Bu ətir iki gənci valideyn edir, çiyinlərinə böyük bir məsuliyyət qoyur. Övladlarını alırlar qucaqlarına. Dünyanın ən gözəl sevgisi olan övlad sevgisi nə qucağa sığır, nə mənzillərin otaqlarına... Bu sevgi bir ovuc boyda olan, lakin nələr-nələr sığdıra bildiyimiz ürəyimizə sığır. Ata-ana olur insan. Elə bu zaman da ata-ana qədrini bilməyə başlayırıq. Yuxusuz gecələr, qayğılı gündüzlər anamızı andırır. "Bir ailəm var, məsuliyyəti mənim üzərimdədir" hissi atamızı xatırladır bizə. Sanki baba-nənələrimizin "ata-ana olmayan bilməz valideyn qədrini" deyimini də məhz bu zaman dərk edirik...



Oğul, qız – fərqi yoxdur, doldurur evimizi sevinclə, xoşbəxtliklə... Qayğılı günlər başlayır ailədə. Nə qədər gözəl günlərdir bu qayğılı günlər. İnsanın həyatını maraqlı edən, ömrünü mənalandıran günlərdir övlad qayğısı çəkmək. Onun böyüməsini izləmək – balam bu gün bir addım atdı, bir kəlmə söz söylədi, bir şeir dedi, birinci sinfə getdi, əla qiymət aldı, idmanda uğur qazandı, olimpiadа qalibi oldu, universitetə daxil oldu, əsgər getdi, ailə qurdu kimi sevinclərini yaşamaqla bərabər, xəstələnəndə qayğısını çəkmək, niyə yemədi, niyə yaxşı oxumadı, niyə yoldaşlarından geri qaldı, – deyə narahatlıq keçirmək də gözəldir. Axı bu, bir ailədə yaşananlardır. Yaxşılar da, yaxşı olmayanlar da bizimdir. Yaxşını lap yaxşı, yaxşı olmayanı yaxşı səviyyəsinə gətirməkdir valideynlik vəzifəsi, məsuliyyəti.

### Ailə cəmiyyətin kiçik bir parçasıdır

Bu kiçik qurumda özünü tapanlar cəmiyyətdə də özünü təsdiq edə bilir. Bu, ailə adlı ömrün yay fəslinə bənzəyir. Necə ki yayın sonuna doğru təbiət bütün barını qoyur ortaya, ailənin də "yay mövsümündə" onun cəmiyyət üçün verdiklərinin "keyfiyyəti" çıxır meydana.

Xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərini əks etdirən, özünəməxsus ənənələri ilə nümunə olan ailələrimiz. Bir evin dörd divarı arasında, bir süfrənin başında dostluğu, yoldaşlığı, birliyi, vətənpərvərliyi, etibarı, qənaəti, paylaşmağı aşılayan ailələrimiz. Böyük-kiçik yeri bilməyi, harada oturub-durmağı, harada necə danışmağı öyrədən ailələrimiz. Ailə dəyərlərimizi dəyərləndirən, "ömrünün" ayrı-ayrı zamanlarında Gümüş, Qızıl, Brilyant toylu-büsatlı ailələrimiz, nə gözəl yaraşır ömrünə hər fəslin öz "donu". Bu donları dəyişdikcə uzanır ömrün, xalqımıza məxsus uzunömürlü ailə modelini yaradırsan evlərimizdə.

Ömrün qış fəsli saçları bəyazlaşdırdıqca, bir ömür yolyoldaşı olanların bir-birinə sevgisi, sayğısı daha da artır. Çünki bu yolçuluqdakı maneələri, keşməkeşləri aşmaq, nahamarlıqları qət etmək, payız küləklərinə sinə gərmək əzmi insanları bir-birinə dost edir, ayrılmaz dost... Onları gənc ailələrin nəsihət verəninə, məsləhətçisinə çevirir. Baba-nənə edir. Övladdan da şirin paylı – nəvəli, nəticəli, kötücəli edir. Və bir ömürlük yolyoldaşlarının çatdığı son mənzil neçə-neçə nəsillər sonra da xatirələrdə gözəl bir ailənin ünvanını yaşadır.

### Səadət dolu ünvan...

Lakin bəzən ömrünün payiz fəslini keçib qışa – sona çatmayan ailələrimiz də olur. Dörd fəsli başa vura bilməyən ailələr yarımçıq ömürlü ailələrdir. Təbiətin fəsillərinin ardıcıllığı öz "əlindədirsə", ailənin "dörd fəslini" sıralamaq biz insanların əlindədir. Bütün çətinlikləri aşa biləcək, əzmkar, mübariz insanlarda. Elə isə bir ailənin belə dağılmasına izin verməyək. Qoruyaq, nəyin bahasına olursa-olsun, qoruyaq. Övladlarımızı atasız, anasız qoymayaq. Üzlərindəki sevincin, təbəssümün, gülüşün yerinə öz əllərimizlə kədər, gözyaşı toxumları səpməyək. Çünki zaman bu toxumları cücərtdikcə belə uşaqlar həyatın sərt sillələri ilə qarşılaşmalı olurlar. Tək uşaqlarmı? Xeyr, həm də təklənən qadınlar, kişilər. Bir də yarımçıq ömürlü ailələri özlərinin kədərinə çevirən böyüklərimiz... Elə buradaca böyük şəxsiyyətlərdən birinin gözəl kəlamını xatırlamaq yerinə düşər: – Bütün dünyanı gəzib səadət axtardım, tapmayıb kor-peşman evə döndüm. Sən demə o, evdə məni gözləyirmiş. Bu ev isə yalnız bir ömürdə birbirinin yolyoldaşına çevrilənlərin ünvanı ola bilər. Səadət dolu ünvan...

***Mətanət Məmmədova***

# Heydər Əliyev obrazı ilmələrin gözü ilə



Milli atributlarımızdan danışarkən tariximizi özündə əks etdirən, göz oxşayan xalçalarımız da xüsusi qeyd olunur. Azərbaycan xalçaları dünyanın milli sənət nümunələri içərisində öz xalqının həyat tərzini, adət-ənənələrini, görkəmli şəxsiyyətlərini ilmələrlə tərənnüm edən ən gözəl incilərdəndir. Bu mənada Qarabağ, Gəncə xalçaları ən möhtəşəm dünya sərgilərində, muzeylərində nümayiş olunaraq daim Ölkəmizin də mühüm təbliğat amillərindən olub. Bu yüksək əhəmiyyətli sənəti yeni xalçaçılığı və ümumiyyətlə, tikmə sənətini Ulu öndərimiz Heydər Əliyev də yüksək qiymətləndirib və onun inkişafına xüsusi diqqət ayırıb. Məhz Ulu öndərin təşəbbüsü və sərəncamı ilə Azərbaycanda Xalça Muzeyi yaradılıb. Bununla da qədim xalçaçılıq sənəti müasir dövrün də sənət meyarları ilə qovuşaraq daha mükəmməl inkişaf yoluna qədəm qoyub.

Odur ki, "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" layihəsi çərçivəsində "Heydər Əliyev obrazı ilmələrin gözü ilə" adlı tədbirin keçirilməsi də məhz bu sahədə Ulu öndərin xidmətlərinin bir daha bugünkü nəslə çatdırılması və ilmələrdə Heydər Əliyev obrazının tərənnümü ilə bağlıdır. Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçığı ilə Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" layihəsi çərçivəsində bu yaxınlarda "Nur Art House" Xalça Qalereyasında "Heydər Əliyev obrazı ilmələrin gözü ilə" adlı tədbirdə peşəkarlar mövzu ilə bağlı maraqlı çıxışlar edib və Ulu öndərin obrazını xalça və tikmələrdə əks etdirən çox gözəl sənət nümunələri təqdim etdilər.

Tədbiri giriş sözü ilə açan "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm", "Heydər zirvəsi" və digər mükafatların laureatı Səadət Təhmirazqızı "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" layihəsi çərçivəsində keçirilən tədbirlərdən danışaraq iştirakçıları layihə ilə ətraflı şəkildə tanış etdi. Sonra söz Azərbaycan təthiqi sənət nümunələrinin dərin tədqiqatçısı olan sənətşünaslıq üzrə elmlər doktoru, Əməkdar incəsənət xadimi, professor Kübra Əliyevaya söz verildi. Kübra xanım Ulu öndərin xalça sənətinə və xalçaçılara olan qayğısından, diqqətindən söhbət açaraq, onunla bağlı öz xatirələrini də yada saldı. Kübra xanım Heydər Əliyev obrazını xalçalarda əks etdirən sənətkarlar haqqında da danışıb, onların öz çıxışında əsərlərinin təhlilinə də geniş yer verdi. O, Lətif Kərimovun bu işdə xidmətlərini xüsusi vurğuladı.

Tədbirdə Nazilə Əbilova, Tahir Məcidov, Esmira Musayeva, Mehriban Kərimova və Elşən Hüseynovun əsərləri nümayiş olundu. Eyni zamanda, gənclərin də mövzuya dair rəsm və tikmələrdən ibarət sərgisi təşkil olunmuşdu.

Tədbirin ən maraqlı əsərlərindən biri də Əməkdar rəssam Adil Şıxəliyevin Heydər Əliyev obrazını ilmələrdə əks etdirən qobileni idi. Bu irihəcmli əsərin hər ilməsində sanki Ulu öndərin – "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamından doğan Heydər Əliyev və Azərbaycan obrazı canlanır. Adil müəllim və digər sənətkarlar nümayiş olunan əsərlərinin yaranması barədə öz fikir və xatirələrini söylədilər.

Tədbirin sonunda sənətkarlara – "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin diplom və sertifikatları təqdim olunub, uzun illər Azərbaycan xalça sənətinin təbliğində və inkişafında xidmətləri olan "Nur Art House" Xalça Qalereyasının rəhbəri Roza xanım Tağıyevaya təşkilat adından təşəkkürnamə təqdim olundu.

***Fidan Nəsirova-Əhmədova***
***Üzeyir Hacıbəyov adına BMA-nın elmi laboratoriyasının elmi işçisi***



# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il oktyabr ayının 5-də YAP Neftçala rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Neftçala rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.







# Dünya təhlükə qarşısındadır

## Rusiya-Ukrayna müharibəsində nüvə silahından istifadə oluna bilər

***Rusiyanın 2022-ci ilin fevralından Ukraynaya qarşı başladığı müharibə minlərlə insanın həyatını itirməsi, yüzlərlə şəhərin, kənd və qəsəbənin dağıdılması, milyonlarla insanın öz isti ev-eşiyini tərk etməsi ilə nəticələndi. Demək olar ki, Ukrayna ərazisinin az qala 70 faizi müharibənin qurbanı olub, 20 milyon insan isə müxtəlif ölkələrə köç edib. İtkilərinin sayı da az deyil - 400 min nəfər.***

Bütün bunların fonunda müharibə ara vermir. Deməli, hələ yüz minlərlə insanı ölüm-itim, didərgin olmaq təhlükəsi gözləyir. "Xüsusi əməliyyat" adı altında azad, müstəqil dövlətin ərazisinə soxulan Rusiyanın vəziyyəti də müharibə müəlliflərinin ürəyincə deyil. Ukrayna tərəfinin yaydığı məlumatlara görə, ümumilikdə Rusiyanın itkilərinin sayı 278 min nəfərdir. Ölkə prezidenti V.Putin cəbhəyə sıradan çıxarılan əsgər və zabitlərin yerini doldurmaq üçün səfərbərlik barədə əmr imzalayıb. Bundan sonra daha 260 min rusiyalı orduya cəlb edilərək, ət maşının işlədiyi cəbhə bölgəsinə göndərilib. Bu kimi faktlar onu təsdiq edir ki, müharibəni başlayanlar istəklərinə nail ola bilmədilər. Nə idi o istək? Birincisi, Ukraynanı işğal etməklə Qərbi və ABŞ-ın bölgə maraqlarını sıradan çıxarmaq. İkincisi isə Rusiyada 2024-cü ildə keçirilməsi nəzədə tutulan prezident seçkilərinə qədər ağır və üzücü görünən Ukrayna problemini həll edib, seçkilərə qəhrəman olaraq qatılmaq. Lakin görünən ondan ibarətdir ki, Avropa və ABŞ rəsmi Kremlin uzaqlara hesablanan maraqlarını alt-üst etdi.

### Qərb Kiyevi bütün növ silahlarla təchiz edir

Qərb dairələri ara-sıra Rusiyanın ərazilərinə hücumlar təşkil etdirməklə Şoyqunun və Gerasimovun sayıqlığını yoxlamğa çalışırlar. Nəzərdə tutulan plan o qədər də müsbət nəticələr verməsə də, Ukrayna ərazisində rəsmi Kiyev uğurlu hərbi qələbələr qazanmaqdadır. Artıq işğal edilən ərazilər rus hərbçilərindən təmizlənib. Zelenski hakimiyyəti daha uğurlu hərbi əməliyyatların keçirilməsi üçün Qərbdən növbəti maliyyə və hərbi silah-sursat istəməkdədir. Rusiya prezidenti Vladimir Putin isə bildirir ki, Qərb Ukraynadakı münaqişəni dayandırmaq istəyirsə, Kiyev rejiminə silah verilməsini dayandırmalıdır: "Rusiya münaqişəni dayandırmaq istəyir, lakin Qərb bunu davam etdirir, Kiyevi bütün növ silahlarla təchiz edir".

Bəli, Qərb müharibəni tam şəkildə Ukraynanın xeyrinə həll etmək üçün hər cür maliyyə və hərbi yardımını göstərməkdədir. UNN agentliyinin məlumatına görə, Ukrayna Silahlı Qüvvələri üçün Almaniya Leopard-2 tanklarının ardınca. SurveilSpire kəşfiyyat sistemlərinin yeni partiyasını tədarük etməyə başlayıb: "Rheinmetall SurveilSpire avtomatlaşdırılmış kəşfiyyat sistemlərinin yeni partiyasını Ukrayna köçürməyə başlayıb. Ukrayna üçün sifariş Almaniya hökuməti tərəfindən ödənilib. Sifarişlər ikirəqəmli milyonlarla avro diapazonundadır. Aydınlaşdırılır ki, sistemlərə videonu mobil komanda postuna ötürmək üçün 4G və Starlink kimi simsiz rabitə kanalları daxildir."

Bir sıra xarici nəşrlərin iddiasına görə, Ukraynaya tədarük olunan Leopard-2 tankları döyüş meydanında gözlənilən ümidləri doğrultmayıb: "Alman tanklarının çatdırılmasından əvvəl ekspertlər bu maşınların döyüş zonasında "oyun qaydalarını" dəyişə biləcəyini iddia edirdilər. Bununla belə, Qərbin ağır texnikası, o cümlədən, Leopard 2, Kiyev tərəfindən irəli mövqelərə yerləşdirilməyib". Hətta bəzi nəşrlər iddia edirlər ki, Ukrayna ordusu alman tankından təyinatı üzrə istifadə etmir: ""Qərb tankları, xüsusən də, alman Leopard 2 demək olar ki, görünməz idi. Ukrayna Silahlı Qüvvələri hücum zamanı havadan dəstək verə biləcək döyüş təyyarələrinin olmaması səbəbindən Avropa texnikasının köməyi ilə Rusiya müdafiəsini yarmağa başlaya bilməyib".

Xatırlatmaq lazımdır ki, bir qədər əvvəl ABŞ-ın keçmiş kəşfiyyatçısı Skot Ritter Zaporojye istiqamətində rus qoşunları tərəfindən Qərb tanklarının metodik şəkildə məhv edildiyini açıqlamışdı.

### Rusiya- Ukrayna müharibəsi bütün dünyaya təsir edir

Müharibə zonasındakı vəziyyətə gəlincə, tərəflər öz maraqlarına uyğun informasiyalar paylaşırlar. Hazırda Baxmut və Xerson istiqamətində vəziyyət gərgindir. Ukrayna Silahlı Qüvvələri ada zonasında - Dnepr çayının sağ və sol sahilləri arasında möhkəmlənməyə cəhd etməkdə davam edir. Rusiya Müdafiə Nazirliyinin verdiyi məlumata görə, ukraynalılar düşmən texnika və silahlarını itirir: "Rusiya atəşi ilə iki maşın, ABŞ istehsalı M777 artilleriya sistemi və Xerson şəhəri yaxınlığında 126-cı Ərazi Müdafiə Briqadasının sursat anbarını məhv edib".

Rusiya müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, oktyabrın 5-də Rusiyanın endirdiyi zərbə nəticəsində Artyomovsk ərazisində hərbi əməliyyatlara cavabdeh olan Ukrayna Ordusu komandanlığının "Soledar" taktiki qrupu məhv edilib: "Baxmut cəbhəsində FAB-1500 hava bombası Ukrayna Silahlı Qüvvələrinin demək olar ki, bütün komandanlığını əhatə edir". Rusiya Aerokosmik Qüvvələrinin təyyarələri Ukrayna Silahlı Qüvvələrinin hava-desant qrupunun Krıma endirilməsi cəhdini dayandırıb, - Rusiya Müdafiə Nazirliyi bildirib. Ukrayna desant qüvvələri yüksək sürətli hərbi qayıq və üç reaktiv xizəklə Tarxankut burnuna doğru irəliləyib. Almaniyanın "Bild" qəzeti yazır ki, Ukrayna hökuməti kifayət qədər silah tədarükünə baxmayaraq uğursuz hücuma görə ümidsizlik yaşayır. Qeyd olunub ki, Rusiya hərbi istehsalın həcmini xeyli artırıb və Qərbdən daha çox silah istehsal edə bilər: "Rusiya qoşunları Ukrayna Silahlı Qüvvələrinin Artyomovsk istiqamətində Ukrayna qoşunlarının koordinasiyasında iştirak edən "Soledar" ayrıca taktiki qrupunun komandanlığının ən böyük qərargahını məhv edib. Zelenskinin bu yaxınlarda ziyarət etdiyi qərargah. Aleksandro-Kalinovoda yerləşirdi və çox yaxşı möhkəmləndirilmiş və gizli idi. Qərargah bir yarım tonluq FAB-1500 hava bombası ilə vurulub".

"Donetsk Xalq Respublikası" rəhbərinin müşaviri Yan Qaqin Ukrayna Silahlı Qüvvələrinin 15 nəfərdən çox hərbçisi Donetsk yaxınlığında Rusiya ordusuna təslim olduğunu bildirib: "Əsir götürülən komandirin dediyi kimi, kütləvi təslim olmanın səbəbi Donetsk cəbhəsindəki Rusiya mövqelərinə dəfələrlə uğursuz cəhdlər nəticəsində ağır itkilərin verilməsidir. Bundan əvvəl Krıma enməyə cəhd edən diversantlardan biri tutularaq dindirilib.

Ukrayna silahlı qüvvələri heç vaxt bizim döyüş aviasiyasından belə güclü şillə almamışdı: Rusiyanın Su-34 qırıcı-bombardmançı təyyarəsi xüsusi əməliyyat zamanı ilk dəfə FAB-1500 bombasından istifadə edib. Zərbə "Soledar" ayrı-ayrı taktiki qrupunun qərargahına (Aleksandro-Kalinovo kəndi yaxınlığında yerləşirdi) dəydi. Nəticədə, 50-yə yaxın əsgər məhv edildi və təxminən eyni sayda yaralandı. Demək olar ki, bütün rabitə vasitələri, hərbi texnika və 100 metr radiusda dayaq məntəqələri məhv edilib. Bu qədər çox sayda öldürülən və yaralanan yalnız bir snayper tərəfindən hədəfə "yerləşdirilmiş" bombanın qüdrətli gücü ilə deyil, həm də tətil zamanı komandanlıq heyətinin iclasının keçirilməsi ilə izah olunur".



### "Atom bombası işə düşə bilər ki, bu da dünyanın sonu demək olar"

Rusiyanın genişmiqyaslı hücumlarına baxmayaraq V. Zelenski Qərb tərəfdaşlarından yardım göndərilməsini israr etməkdədir. O, inandırmağa çalışır ki, dəstək güclü olsa, uğurlu hərbi əməliyyatların və bunun fonunda işğalçıların ölkə ərazisindən qovulması nəticələri də çox ola bilər. Bu hal isə bəzi hallarda Avropdakı müharibə əleyhdarları tərəfindən yaxşı qarşılanmır. "Bu davranış biabırçı və iyrəncdir", - deyə Pentaqonun keçmiş müşaviri polkovnik Duqlas Makqreqor bildirib. Polkovnik Makqreqor qeyd edib ki, Zelenski özünü iyrənc aparır, maliyyə tələb edir. Onun sözlərinə görə, Zelenski çoxlu sayda ukraynalıları ölümə göndərib. O, həmçinin Ukrayna rəhbərini partnyorlara qarşı daim tələblər qoyduğuna və ağzını bağlamadığına görə tənqid edib.

Bu arada diqqətçəkən məqam ondan ibarətdir ki, Bayden hakimiyyəti ciddi maliyyə sıxıntısı ilə üzləşməli olub. Çünki Nümayəndələr Palatasının spikeri Kevin Makkartinin vəzifədən kənarlaşdırılması və konqresmenlərin Ukraynaya vəsaitin ayrılmasında tərəddüdlərə yol verməleri Baydeni çətin vəziyyət salıb. Baxmayaraq ki, Bayden Konqresdən kənar vasitələrlə Ukraynaya yardımlarını davam etdirəcəklərini bəyan edib. Demokrat senator Co Mançini isə bunun çətin olacağını bildirib: "Makkartinin "siyasi günahı" ondan ibarət idi ki, Ukraynaya yardımı müvəqqəti büdcədən çıxarmaq müqabilində o, partiya yoldaşlarını demokratların artıq israr etdiyi digər məqalələri dəstəkləməyə inandırdı. Lakin bu, göründüyü kimi, bütün respublikaçıların xoşuna gəlməyib".

Britaniyanın The Economist nəşri yazır ki, spikerin istefası Ukraynaya dəstəyi çətinləşdirib: "İndi isə bu məsələdə konsensus tapmaq cəhdi seçki təşklində siyasi sağ qalmanın əsas məsələyə çevrildiyi hər iki partiya tərəfindən asanlıqla torpedalana bilər. Amerikalı seçicilər üçün xatırlayaq ki, xarici siyasət həmişə onların maraqları çərçivəsində olub. Ancaq dərhal həllini tələb edən daxili problemlər və buna görə də pul birinci yerdədir. Financial Times-da McCarthy-nin istefası və onun nəticələri ilə bağlı məqaləyə oxucuların şərh belədir: ABŞ idarəolunmaz hala gəlir. Partiya parçalanması artıq hakimiyyəti iflic edib və ölkə bütün dünyanın gülüş obyektinə çevrilib. Ukraynadakı proksi münaqişəsi ABŞ-ın özündə bumeranq oldu - qlobal iqtisadiyyata hesabsız ziyan vurduqdan sonra. Növbəti nə olacaq, vətəndaş müharibəsi?

Bir sözlə, ABŞ-da və Avropada hökm sürən ziddiyyətli proseslər onu deməyə əsas verir ki, Rusiya-Ukrayna müharibəsi bütün dünyaya təsir etməkdədir. Buna hələ ki, üçüncü dünya müharibəsi demək çətin osa da, hər halda siyasi və hərbi toqquşmalar və nəhayət, qida çatışmazlığı sahəsində ciddi problemlər dünyanın sabahı üçün heç də yaxşı nəticə vəd etmir. Rusiya Prezidenti V.Putinin hələ ki, müharibəni dayandırmaq fikrinin olmaması və rəsmi Kiyevin də təslim olmaq niyyətində olmaması onu deməyə əsas verir ki, dünyada fəlakətli hal yaşana bilər. Yəni, daha ağır silahlar, hətta atom bombası işə düşə bilər ki, bu da dünyanın sonu demək olar.

**İ.ƏLİYEV**

# Hamı şəhərdədir, bəs kəndlər?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



***Urbanizasiya dünyanın bir çox yerində sürətlə artan bir fenomendir. İnsanlar kənd yerlərindən uzaqlaşaraq şəhərlərdə yaşamağa başlayırlar. Şəhərlərə bu sürətli köçün əsas səbəblərindən biri də kənd təsərrüfatı işlərində texnoloji imkanlardan maksimum istifadədir. Köçlərin səbəblərindən biri daha çox texnika ilə görülən işlər nəticəsində kənd yerlərində fermerlərə ehtiyacın azalması ilə əlaqədardır. Daha aydın desək, texnoloji inkişaf kəndlinin işini və mühitini əlindən alır. Şəhərsalma əhəmiyyət kəsb etdikcə və ya şəhərlər daha vacib hesab edildikcə vəziyyət daha da çətinləşəcək.***

### Şəhər həyatı daha əlverişlidir?

Şəhər anlayışı dinamik bir anlayışdır, çünki tarix boyu mənasını daim dəyişib. Həyat tərzləri bir-birinə bənzəməyən insanların bir araya gələrək yaratdıqları ortaq qaydalara riayət etmələri ilə şəhərlər yarandı. Şəhərləri, məkanı, əhalisini tədqiq edərkən iqtisadi, sosioloji, siyasi, mədəni və s. baxım aspektləri də nəzərə alınmalıdır. Bu baxımdan, şəhər anlayışına zaman və ölkələrdən asılı olaraq müxtəlif mənalar verilib.



Xüsusilə, sənaye inqilabından sonra urbanizasiya prosesinin artdığı müşahidə edildi. Məlumdur ki, sənaye inqilabından sonra iş imkanlarının artması və daha əlverişli yaşayış şəraiti hesabına urbanizasiya artdı. Yəni, başqa sözlə, urbanizasiya şəhərlərdə dəyişən davranış modellərinə və ümumi qaydalar toplusuna uyğunlaşma prosesidir.

### Şəhərdə iş imkanları axına səbəb olur

Urbanizasiyanın iqtisadi səbəbləri daha çox şəhərlərin təklif etdiyi bir çox iqtisadi üstünlüklərlə bağlıdır. Şəhərlərdə çoxlu mütəxəssisə ehtiyac var. Digər tərəfdən, xüsusən də inkişaf etməmiş ölkələrdə kənd təsərrüfatının məhsuldarlığı və adambaşına düşən kənd təsərrüfatı gəliri kəndliləri öz kəndlərində saxlamaq üçün çox aşağıdır. Qeyri-kafi gəlir, kənd təsərrüfatına yararlı torpaqların azalması, su problemləri, iqlim şəraiti bu təkanverici amilləri gücləndirən səbəblərdir. Kəndin və şəhərin həyat tərzləri arasındakı fərqdə də sosial-psixoloji səbəblər ortaya çıxır. Şəhərin azad ab-hava təklif etməsi, şəhərli olmağın üstünlük hesab edilməsi, şəhərdə mövcud olan sosial-mədəni imkanlar və xidmətlər şəhəri cəlbedici edir.

Dünya əhalisinin yarıdan çoxunu öz ağuşuna alan şəhərlərin bu inkişaf prosesinin heç bir problem yaratmadığını düşünmək son dərəcə səhvdir. İngiltərə kimi sənayeləşmənin ilk yarandığı ölkələrdə belə, insanların şəhərlərə sıxışdırılmasının yaratdığı problemlər və şəhərlərin bu problemlərin öhdəsindən gəlmək imkanları uzun müddət çəkdi. İnkişaf etmiş ölkələrin şəhərləri, iqtisadi inkişaf və sənayeləşmə səbəbindən doğru miqrasiya axınına ehtiyac duysa da, bu köçün də bir həddi var. Bir çox ölkələrdə şəhərlərdə yaşayanların sayı kənd yerlərində yaşayanların sayından qat-qat artıqdır.

### Şəhərləşmə = laqeydləşmə

Urbanizasiya anlayışı şəhərləşmə prosesi ilə bağlıdır. Həddindən artıq izdihamlı bir mühitdə hər kəsin yalnız özünü düşündüyü və başqalarını nəzərə almadığı bir həyat tərzi şəhərləri ancaq bitməz-tükənməz problemlər mərkəzinə çevirir. Odur ki, urbanizasiya anlayışı bir tərəfdən qayda-qanunlu həyatı tələb edir, bir tərəfdən də bu tələbin dünyaya baha başa gəlir, şəhərlərə axın sayəsində dünyanın tarazlığı pozulur, insani münasibətlər azalır, ünsiyyət problemləri kök salır.

1950-ci ildə dünya əhalisinin 30%-i şəhərlərdə yaşayarkən 2010-cu ildə bu nisbət 50%-i (3,3 milyard nəfər) ötmüşdü. 2030-cu ildə şəhər əhalisinin 60%-, 2050-ci ildə 70%-ə çatacağı təxmin edilir.



Beləliklə, 2030-cu ildə dünyada şəhərlərdə 5 milyarddan çox insan yaşayacaq. Növbəti onilliklədə urbanizasiya, xüsusilə, Çin və Hindistanda böyük şəhərlərə təsir edəcək.

### Kəndlərin taleyi necə olacaq?

Sürətli urbanizasiya mənzil, ünsiyyət, ekoloji çirklilik, boş ərazilərin itirilməsi, nəqliyyat kimi problemlərə səbəb olur. Sənaye inkişafı olan ölkələrdə kənddən şəhərə miqrasiya kənd təsərrüfatı sahələrində işləmək üçün işçi qüvvəsinin azalmasına səbəb olur. Bu vəziyyətdən xüsusilə şəhər yerlərində yaşayan insanlar zərər görür. Bunun səbəbi də iş uğrunda rəqabətin çoxalması iş tapa bilməməlidir.

Şəhər insan münasibətləri baxımından fizioloji, iqtisadi, sosial və mədəni ehtiyacların müəyyən səviyyədə ödənildiyi yerdir. Başqa sözlə, şəhərlər daha yaxşı təhsil, səhiyyə və s. vəd edir. Yaxşı xidmət istəyən, karyerasında yüksəlmək istəyən, daha çox gəlir əldə etmək istəyən, daha gözəl və daha yaxşı mənzil istəyən insanlar üçün şəhərlər daha ideal yaşayış mərkəzi hesab edilir. Verdiyi imkanlara görə cazibədar görünən şəhərlər kənd insanlarını beləcə öz məngənəsinə salıb əzir. Kənddə işi olan, olmayan hər kəs bu işıltıya aldanır. Nəticədə kənd təsərrüfatı məhv olur, kəndlərdə mədəni həyat sönür.

### Urbanizasiya: mənfisi, müsbəti nədir?

Şəhərlərə miqrasiya təkcə binaların sayının artmasına səbəb olmur, həm də küçələrin və infrastrukturların çoxalmasını sürətləndirir. Bundan əlavə, bu, mövcud şəhərlərin genişlənməsinə təsir edir və şəhərin təbii ərazilərini məhv edir. Dünyada urbanizasiya sürətlə inkişaf edir. Bununla belə, sürətli urbanizasiya müsbət və mənfi cəhətləri də gətirir.

Müsbət cəhətləri sadalasaq, daha çox yaşayış sahəsi təmin etməsini misal göstərmək olar. Urbanizasiya üfüqi inkişafa deyil, şaquli inkişafa aiddir. Urbanizasiyanın sonunda şəhərlərdə tikilən hündürmərtəbəli binalar buna tipik nümunədir. Bu formada daha çox yaşayış sahəsi təmin edilir və bu əhalisi sürətlə artan ölkələr üçün optimal variantdır.



Daha bir müsbət tərəfi enerji səmərəliliyinin artmasıdır. Məsələn, fərdi evin isidilməsinə sərf olunan enerji, bir yaşayış binasının isidilməsinə sərf olunan enerjidən qat-qat çoxdur. Başqa üstünlükləri iş imkanları, yaxşı təhsildir. Təhsil səviyyəsi urbanizasiyanın əsas üstünlükləri arasındadır. Şəhər yerlərində doğum səviyyəsi kənd yerlərindən aşağıdır. Bu, əhali artımının yaratdığı ekoloji deqradasiyanı azaldan amildir və əhalisi sürətlə artan ölkələr üçün əlverişlidir.

Lakin urbanizasiyanın üstünlüklərindən çox zərərləri olduğunu da etiraf etmək lazımdır. Urbanizasiya həddindən artıq istiləşməyə səbəb olur. Misal üçün, asfalt yollar, daş-beton binalar gündüz özlərinə hodurduqları istiliyi gecələr buraxaraq iqlimin həddindən artıq istiləşməsinə səbəb olur. Havanın çirklənməsi də şəhərlərin əsas problemlərindən biridir, əhali sıxlığı artdıqca bu problem də böyüyür.

Urbanizasiya nəticəsində yaranan ən mühüm problemlərdən biri su ehtiyatlarının çirklənməsi və azalmasıdır. Xüsusilə böyük şəhərlərdə həddindən artıq su istehlakı su ehtiyatlarını çox təhlükəli səviyyələrə çatdırıb. Şəhər strukturlaşması suyun hidroloji dövranını da pozurŞ çünki suyun çirklənməsinə səbəb olan ən böyük amil kanalizasiyadır.

### Şəhərləşməli, ya kəndləşməli?

Şəhərlər dünyanın ümumi ərazisinin təxminən 1%-ni əhatə edir. Hazırkı sürətlə davam edən şəhər genişlənməsi Yer kürəsində yaşana bilən yerlərin azalması ilə nəticələnəcək. Şəhərlərin həddindən artıq böyüməsinin başqa bir mənfi təsiri, artan xərclər səbəbindən əlavə iqtisadi və maliyyə yükü gətirməsidir.

Urbanizasiyanın yaratdığı bu problemləri həll etmək üçün bir çox üsullar təklif olunur. Bunlardan bəziləri şəhərlərdə sıx əhalinin azaldılması və genişlənməsinin qarşısının alınmasıdır, amma bəzi araşdırmalar yeni şəhərlərin yaradılmasını təklif edir. Şəhərlərin sürətli böyüməsi, şəhərdə binalara tələbatın artması və buna paralel olaraq kirayə qiymətlərinin artması qeyri-qanuni tikintilərə də səbəb olur. Urbanizasiyanın digər nəticəsi doğum nisbətinin azalmasıdır. Xüsusilə inkişaf etmiş ölkələrdə şəhərlərdə doğum səviyyəsi kənd yerlərindən aşağıdır, bu da ölkənin demoqrafik vəziyyətinə təhlükə yaradır.

Paytaxta təhsil dalınca gələn gənclər də urbanizasiyaya öz "töhfə"lərini vermiş olurlar. Belə ki, onlar şəhərdə daha yaxşı karyera imkanları olduğunu düşünərək təhsilini bitirdikdən sonra geri qayıtmaq istəmirlər. Kəndlərdə, rayonlarda məhdud iş yerləri onların bu qərarında haqlı olduğunu göstərir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
6 oktyabr
2023-cü il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# XƏBƏRDARLIQ: Yuxu dərmanları asılılıq yaradır!

***"Yuxu dərmanlarını sadədən mürəkkəbə doğru sadalasaq sedatif, antidepressant, trankulizatr və psixotrop preparatlarını nümunə göstərə bilərik. Bu dərmanların bir çoxu mərkəzi sinir sisteminə təsir etdiyi üçün asılılıq yarada bilir". Bu sözləri SİA-ya açıqlamasında həkim-terapevt Sübhan Hacıyev deyib.***



**HƏKİM AYDINLIQ GƏTİRDİ**



Onun sözlərinə görə, bu dərmanlar mütləq şəkildə həkimlər tərəfindən yüz ölçülüb, bir biçilib yazılmalıdır: "Bəzən sırf nevroloqlar və psixoterapevtlər bu dərmanlardan daha çox istifadə edirlər. Biz terapevtlərin istifadə etdiyi isə daha çox sedativ preparatlar, bitki mənşəli sakitləşdiricilər, bəzən də antidepressantlar olur. Hansılar ki təşviş pozuntuları və həyacanı götürür. Lakin sırf yuxu problemi olan insanlarda daha ciddi bir trankulizatrların və psixotrop preparataların başlanılması həkim nevroloqlar, yaxud da psixoterapevtlər tərəfindən təyin olunur. Bu zaman pasientlər ciddi şəkildə müayinə olunmalı və yuxusuzluğun səbəbi araşdırılmalıdır. Çünki burada bir yox, bir neçə səbəblər ola bilər. Pasientlərin həyat rejimindən tutmuş pis vərdişlərinə qədər olan amillər xəstənin yuxusuna, həyat fəaliyyətinə və konfortuna təsir göstərə bilir".

Sübhan Hacıyev sözlərinə belə davam edib: "O ki qaldı bu dərmanların təyininə, dediyim kimi həkimlər pasientləri müayinə etdikdən sonra xəstənin ağırlıq dərəcəsi, çəkisi və həyat rejimi nəzərə alınaraq dərmanların az dozadan yavaş-yavaş artırılması nəzərdə tutulur. Dərmanın bitmə tarixinə bir az qalmış dozanı azaldaraq ondan çıxış olur. Bəzən pasientlər özlərini yaxşı hiss edib özbaşına bu dərmanların istifadəsini kəsirlər. Bu da asılılıq yaradır. Yaxud da həkimlər tərəfindən təyin olunmuş bir müalicə kursu bitir və ondan sonra kontrol müayinələrə gəlmirlər. Ani bir təşviş pozuntularında da özbaşına bu dərmanlara başlayırlar. Nəticədə mərkəzi sinir sistemində elə bir təlatümlər baş verir ki, pasientlərdə ciddi bir asılılıq yaranır. Bu cür durumlardan isə pasienti xilas etmək həkim üçün də çox çətin olur. Buna görə tövsiyə edərdim ki, bu cür dərmanları həfifə almasınlar. İnsanlar bütün kimyəvi tərkibli dərmanlara ciddi yanaşsınlar və həkim təyinatı olmadan bu dərmanları özbaşına qəbul etməsinlər".

***Ayşən Vəli***

# DİQQƏT: 21 yaşlı qızın təcili yardıma ehtiyacı var!



21 yaşlı Babaşova Ayşən Eldəniz qızının təcili yardıma ehtiyacı var. SİA xəbər verir ki, serebral iflic xəstəsi olan Ayşən bunlardan əziyyət çəkir:

- Aşağı ətraflarda hərəkətin məhdud olması
- Pəncə üzərində yeriməsi
- Ümumi narahatlıq
- Əsəbilik

Anası Babaşova Kəmalə Vaqif qızı uşağını anadangəlmə xəstə hesab edir. Xəstəliyi vaxtından tez (7 aylıq) və uşağın asfiksiya halında doğulması ilə əlaqələndirir. İki yaşında xəstəxanada müalicə alıb. Yaxşılaşma hiss etmədiyi üçün UNX-a müraciət etmişdir, yaxşılaşma üzrə ərizə yazılıb. Reabilitasiya məqsədilə klinikaya müraciət etmişlər. Xəstənin təcili cərrahi əməliyyata ehtiyacı var. Bunun müalicəsi üçün də Türkiyədəki klinikada əməliyyat xərci olaraq 10 min 200 ABŞ dolları məbləğində vəsait tələb olunub. Bu xəstəlik getdikcə Ayşənin beyninə və əqlinə də təsir edir. Əgər təcili əməliyyat olunmasa, vəziyyəti daha da kəskinləşəcək. Ayşənin ailəsi imkanlı şəxslərdən kömək istəyir.

Əlaqə nömrəsi: 055-981-50-96

Adı soyadı: Babaşova Kəmalə Vaqif qızı

Hesab nömrələri: ABB Bank.

1. AZ75IBAZ33801019444738170350

2. LEO Bank kart hesabı: 4098584478876434

# Təbii çuğundur şirəsi şəkər xəstəliyinə səbəb olur?



**MÜTƏXƏSSİS AÇIQLADI**

"Qırmızı çuğundur çox faydalı bir tərəvəzdir. Tərkib baxımından 4-12% şəkər, 1.5% zülal, 0.1% yağ və 0.8% dəmir ehtiva edir. Həmçinin tərkibində fol turşusu, A, C, B6, niasin, biotin vitaminləri, maqnezium, selenium, kalium, kalsium, sink, natrium kimi minerallar da mövcuddur". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, qırmızı çuğundur yumrusu (kökü) lif baxımından da çox zəngindir: "Qida sənayesində qatqı maddələri olaraq istifadə olunan təbii piqment istehsalı üçün yaxşı xammaddədir.

Qırmızı çuğundurdan nəinki qida sənayesi, həmçinin tibb sahəsində də istifadə olunur. Qan təzyiqini aşağı salır, ürək-damar sağlamlığı, əzələ gücünü artırmaq, qan dövranını yaxşılaşdırmaq baxımından da çox faydalıdır".

Asim Vəliyev sözlərinə belə davam edib: "Qırmızı çuğundurun fenol tərkibi də yüksəkdir. Yarpağı betalainlər, flavonoidlər, polifenollar, vitaminlər və fol turşusu ilə zəngin olduğu üçün təbii bir antioksidant qaynağıdır. Çuğundurun qida dəyərini qorumaq üçün dondurucuda 0–4 °C temperaturda bir neçə gün saxlamaq olar. Tərkibində olan C vitamini immunitet sistemini gücləndirilməsi baxımından, bol lif tərkibi baxımından isə həzm sistemi üçün faydalıdır. Qırmızı çuğundur suyu orqanizmdən toksinlərin xaric olunmasında da müsbət təsirə malikdir.

İdmançılar üçün də faydalı bir qidadır. Orqanizmə daxil olan oksigenin miqdarını artırır və enerji verir. Bütün bu sadaladığımız faydaları ilə yanaşı digər meyvə və tərəvəzlərdə olduğu kimi çox istehlak edildikdə zərərli ola bilir.

Kalsium səviyyəsinin aşağı düşməsinə, böyrəklərdə zədələnmələrə, qaraciyər problemlərinə, dəridə qızarıqlığa, qan təzyiqinin səviyyəsinin sürətli bir şəkildə aşağı düşməsinə, qan şəkərinin yüksəlməsinə və s. sağlamlıq problemlərinə səbəb ola bilər. Xüsusilə, mədə xorası və bağırsaq narahatlığı olan və böyrəklərində daş olanlara qəti şəkildə qırmızı çuğundurun istehlakı tövsiyə edilmir".

***Ayşən***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**